

2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası nə vəd edir? 15

# Səs

№ 133 (6574) 29 iyul 2022-ci il. Qiyməti 60 qəpik

# Müasirləşdirilən yol infrastrukturu



2




# İnformasiya özbaşınalığı: qarşısı necə alınmalı?

8



Türk dövlətləri xüsusi xidmət orqanları: hansı dairələr niyə narahat olurlar? 3



Kapitoliyə hücumda KİM GÜNAHKARDIR? 13



Bəhruz Quliyev: “Reket mətbuatı”na qarşı bütövlükdə cəmiyyətin özü mübarizə aparmalıdır 5



Enerji müharibəsi, yaxud HİBRİD MÜHARİBƏ 4

Repetitorluqla bağlı təbilin çalınma zamanıdır?



9

Turizm imkanlarına malik bölgələrimiz



7

“Neftçi”dən möhtəşəm qələbə!



# Müasirləşdirilən yol infrastrukturu

## Dövlət başçısının Sərəncamı ilə Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsinə 3,0 (üç) milyon manat ayrılıb

***Bəşəriyyət daim inkişaf edir, texnologiyalar təkmilləşir, görülən işlərin hər biri insanların rahat, firavan, sağlam həyat sürməsinə yönəldilib. Azərbaycanda yol infrastrukturuna ayrılan diqqət ölkəmizə müasir görkəm verməklə yanaşı, üzləşdiyimiz nəqliyyat axınında sıxlığın azaldılmasında da mühüm rol oynayır. Beynəlxalq tələblər səviyyəsində qurulan yollar, inşa olunan yeni körpülər, tunellər əlbəttə ki, piyadaların və sürücülərin rahat hərəkətində önəmli faktordur. Bu gün avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ilbəil artır. Yol infrastrukturunun müasir tələblər səviyyəsində qurulması prioritet vəzifələrdəndir. Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub.***



Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi, "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

Azərbaycan bütün dünyada olduğu kimi, pandemiya ilə mübarizə aparmasına, eləcə də 44 günlük Vətən müharibəsi yaşamasına baxmayaraq, sosial layihələri davamlı olaraq həyata keçirir. Qarşıya qoyulan vəzifələrin uğurlu icrası sayəsində respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub və demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Həmin yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir.

Son günlər yol infrastrukturu ilə bağlı Cənab Prezidentin imzaladığı sərəncamlar diqqət çəkəndir. Azərbaycan Prezidenti İlham Əliyev "Ağstafa rayonunun Ağstafa - Poylu - Gürcüstanla dövlət sərhədi (11 km) - Qıraq Kəsəmən avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Ağstafa - Poylu -Gürcüstanla dövlət sərhədi (11 km)-Qıraq Kəsəmən avtomobil yolunun tikintisi məqsədilə dövlət büdcəsindən 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Dövlət başçısının digər Sərəncamı ilə dörd min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Məmmədabad - Genişkənd avtomobil yolunun tikintisi məqsədilə dövlət büdcəsindən 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrıldı. Daha sonra dövlət başçısının "Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamına əsasən, Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə dövlət büdcəsindən 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrıldı. Görülən işlərin davamı olaraq Azərbaycan Prezidenti İlham Əliyev "Abşeron rayonunun Bakı - Şamaxı - Yevlax (18 km) - Aşağı Güzdək avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən, Bakı - Şamaxı - Yevlax (18 km) - Aşağı Güzdək avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.







Bu günlərdə isə Bakışəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı bu sahəyə ayrılan diqqətin nümunəsidir. Sərəncama əsasən, Bakı şəhəri Sabunçu rayonunun Bakıxanov, Kürdəxanı, Maştağa, Ramana və Sabunçu qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 7,5 milyon (yeddi milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Qeyd olunan Sərəncamdan bir gün sonra isə dövlət başçısı iyulun 28-də avtomobil yollarının yeniden qurulması ilə bağlı daha bir Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb. Göründüyü kimi, ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulur ki, bu da ölkəmizin getdikcə artan iqtisadi gücünün göstəricisidir.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

# Türk dövlətləri xüsusi xidmət orqanları: hansı dairələr niyə narahat olurlar?

## Yalnız Azərbaycana deyil, bütövlükdə Türk dünyasına qarşı yaranacaq istənilən təhdidlərin dərhal aradan qaldırılması üçün birgə fəaliyyət planları icra ediləcək

Sirr deyil ki, 44 günlük Vətən müharibəsində əldə edilən şanlı Zəfərdən sonra Azərbaycanın hərbi-siyasi, eləcə də iqtisadi qüdrətinin sübutu qonşu ölkələrdəki bir sıra qaranlıq dairələri ciddi şəkildə təlaşlandırmaqdadır. Rəsmi Bakının regiona yeni siyasi-iqtisadi mənzərə verməsi, habelə regional və geostrateji mühitdə diktə funksiyasını reallaşdırması da belə qənaətə gəlməyə zəmin yaradır ki, bizi istəməyən qüvvələr əllərində olan bütün imkanlarından maksimal qaydada istifadə etməklə inkişafa mane olmağa, sədd və baryerlər qoymağa cəhdlər göstərirlər. Bunun üçün isə kapitulyant Ermənistandakı revanşistlərdən, habelə bu ölkənin hakimiyyətdaxili strukturlarında yerləşmiş xarici agentlərdən istifadə edilməkdədir.

Ancaq belə faktlar yalnız Ermənistanla yekunlaşmır, eləcə də digər qonşu ölkələrdəki qaranlıq, yaxud yeraltı siyasi dairələrdən də müəyyən təhlükə siqnallarının verilməsi dəfələrlə sübuta yetirilib. Təəssüf ki, ölkədaxili xəyanətkar qüvvələr də ya Beşinci kolon, ya da müxalifətçilik adı altında müxtəlif sifarişləri icra etməklə anti-Azərbaycan xarakterli qüvvələrin ayaq açmaları üçün zəminlər hazırlayırlar. Belə olan halda isə məhz dövlətimizin təhlükəsizliyi ön mövzulardan birinə çevrilir və təhlükələrin qarşısının alınması istiqamətində ardıcıl işlərin aparılması zərurəti artır. Xüsusilə, müharibəsonrası mühitdə həmin zərurət özünü daha çox göstərməyə başlayıb.




### Bəzi qonşu ölkələrin ərazisindən bir sıra radikal dairələr regionda və Azərbaycan daxilində mövcud olan sabitliyin və əmin-amanlığın pozulmasına yönəlmiş fəaliyyəti mütəmadi davam etdirirlər

Bu arada, iyulun 26-da Qırğızıstanın Çolpan-Ata şəhərində Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXIV iclasında irəli sürülən fikirlər də diqqət çəkməkdədir. Qeyd edək ki, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general polkovnik Əli Nağıyev tədbirdə iştirak etməsi ilə yanaşı, haqqında bəhs etdiyimiz mövzuya toxunaraq bir sıra məqamları açıqlayıb.

Onun sözlərinə görə, bəzi qonşu ölkələrin ərazisindən bir sıra radikal dairələr regionda və Azərbaycan daxilində mövcud olan sabitliyin və əmin-amanlığın pozulmasına yönəlmiş fəaliyyəti mütəmadi davam etdirirlər. Konfransda çıxış edən general-polkovnik qeyd edib ki, Ermənistandakı revanşist qüvvələrin təxribat niyyətlərindən hələ də əl çəkməməsi və bu ölkənin müxalifətinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə xələl gətirilməsi üçün ciddi-cəhdlə çalışmasının dərin təəssüf hissi yaradır. Məhz bu təhlükələr nəzərə alınmaqla Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən daim ayıq-sayıqlıq qorunmaqla belə məqamların səbəb ola biləcəyi hər cür neqativ halların qarşısı qətiyyətlə alınacaqdır.



### DTX-nin rəisi general-polkovnik Əli Nağıyevə görə, yarana biləcək istənilən təhlükələrə qarşı birgə mübarizə vasitələrinin tətbiqi vacib amillərdən birinə çevrilir

Daha bir fakt budur ki, bu gün dünyada yalnız Azərbaycan və Türkiyə kimi güclü dövlətlərə qarşı deyil, eləcə də digər türk dövlətlərini bir araya gətirən ümumtürkçülük siyasətinə qarşı da aşkar qısqanclıq, hətta ara-sıra açıq düşmənçilik mövqeləri sərgilənməkdədir.

Və bu xüsusda o da əbəs deyil ki, yarana biləcək istənilən təhlükələrə qarşı birgə mübarizə vasitələrinin də tətbiqi vacib amillərdən birinə çevrilir. Bu baxımdan, DTX-nin rəisi general-polkovnik Əli Nağıyevin Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının Türk Dövlətləri Təşkilatına qoşulması ilə bağlı təşəbbüsü də mühümlük təşkil edir. Habelə, təşkilatın adının dəyişdirilərək ”Türk dövlətləri xüsusi xidmət orqanları” adlanmasına dair təklifin də irəli sürülməsi kifayət qədər əhəmiyyətli faktor kimi qiymətləndirilə bilər. Məhz yuxarıda qeyd edilən fikirlərlə yanaşı, DTX rəisinin dünyada cərəyan edən qlobal kataklizmlərin və proseslərin regionumuzun təhlükəsizlik mühitinə ciddi təsir göstərdiyini bildirməklə türkdilli dövlətlərin birgə fəaliyyətinə yenidən baxılması vacibliyinə toxunması digər türkdilli ölkələr tərəfindən məmnuniyyətlə qarşılanıb.

### Türk dövlətlərin birgə fəaliyyət göstərmələri tələbi artır

Əli Nağıyev beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, ekstremizm və radikalizmin yeni təzahürlərinin meydana çıxmasının, müharibə və münaqişələr nəticəsində müvafiq ölkələrdən qaçqın axınının həmin insanlar arasında olan radikalyönümlü şəxslərin ölkələrarası hərəkət imkanlarının genişlənməsinə şərait yaratmasının xüsusi narahatlıq doğurduğunu bildirib. Eyni zamanda, göstərilən məsələlərlə əlaqədar, türkdilli dövlətlərin xüsusi xidmət orqanları tərəfindən əməkdaşlıq münasibətlərinin maksimum dərəcədə sıx qurulmasının, qarşılıqlı məlumat və təcrübə mübadiləsinin daha da effektiv təşkil edilməsinin, birgə səylərin bundan sonra da əzmlə davam etdirilməsinin zəruriliyi vurğulanıb.

Beləliklə, bu mötəbər Konfrasdan daha hansı nəticələri çıxara bilərik? Fakt budur ki, Azərbaycan türkdilli ölkələr sırasında qardaş Türkiyə ilə regional və strateji əməkdaşlıq etməsinə görə ilk sırada yer alır və həmin əməkdaşlıq sferasının genişləndirilməsi söz yox ki, xarici təhdidlərdən doğa biləcək təhlükəsizlik tədbirlərinin də miqyasının böyüməsinə zəminlər yaradır. Bunun üçün isə yalnız regional deyil, həm də regiondan kənar olan Türk dövlətlərin birgə fəaliyyət göstərmələri tələbi artır. Sözügedən Konfrans isə bu tələblərin icra olunması üçün ən rahat və keyfiyyətli platforma kimi dəyərləndirilə bilər. ”Türk dövlətləri xüsusi xidmət orqanları” ideyasının da irəli sürülməsi həmin gerçəkliyi ehtiva etməkdədir və artıq əminliklə deyə bilərik ki, yalnız Azərbaycana deyil, bütövlükdə türk dünyasına qarşı yaranacaq istənilən təhdidlərin dərhal aradan qaldırılması üçün birgə fəaliyyət planları icra ediləcək. İlk növbədə isə regiondakı qonşular da anlamalıdırlar ki, revanşizm meyillərinin artırılması, yaxud digər təhlükə toxumlarının səpilməsi cəhdləri həmin dairələrin özlərinə ciddi və sarsıdıcı zərbələr endirəcək. Artıq Azərbaycanın Dövlət Təhlükəsizlik Xidməti bu istiqamətdə öz uğurlu fəaliyyətini mövcud potensialı ilə isbatlayıb. İnanırıq ki, həmin reallıq yeni və daha geniş sferanı əhatə etməsi ilə fəaliyyətə başlayan ”Türk dövlətləri xüsusi xidmət orqanları” kontekstində özünü daha geniş spektorda təsdiq edəcək.

***Rövşən RƏSULOV***

# “Prezidentin etimadını doğrultmaq hər bir təyin olunan şəxs üçün şərəf məsələsidir”



”Prezident İlham Əliyevin Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı təyin olunmaları ilə əlaqədar qəbul etməyi və cəmiyyətə açıq bildirməsi artıq dövlətçilik ənənəsi halını alıb”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, həmin sahə üzrə Prezident görülən işlərdən, problemlərdən danışdı: ”Eyni zamanda qarşıya çox ciddi vəzifələr qoydu. Dövlət başçısı üç rayona icra başçısı təyin edərkən bəzi icra başçılarının göstərilən etimadı doğrultmadığını xüsusilə vurğuladı. Onlar vətəndaşların problemlərini həll etmək, dövləti, Prezidenti yerlərdə layiqincə təmsil etmək əvəzinə, əksinə qanunsuz şəkildə maddi vəziyyətlərini yüksəltməyə üstünlük verirlər. Əlbəttə bu heç də diqqətdən kənarda qalmır və 8 nəfərə yaxın icra başçısının tutularaq məhkəmə qarşısına çıxarılması dövlətin bu cür hallara heç bir zaman göz yummayacağını göstərir. Prezident İlham Əliyev təyin edilənlərə vəzifələrinə məsuliyyətlə yanaşmalarını, vətəndaşların problemlərini diqqətə götürmək və onun həlli üçün maksimum səy göstərməyə çağırdı.

Ölkə başçısı bu gün hər bir vəzifəli şəxs ilk növbədə vətəndaş üçün çalışmalı olduğunu öz tövsiyələrində qırmızı xətt kimi keçirdi. Görünən odur ki, ölkə başçısı ayrı-ayrı sahələr üzrə müfəssəl məlumata malikdir. Ümid edirik ki, üç rayon üzrə təyin edilən şəxslər yüksək etimadı doğruldacaqlar və olduqları rayonlarda iş yerlərinin açılması, insanların sosial məsələlərin həll edilməsi, rayonların simasının dəyişdirilməsi üçün ciddi işlər görəcəklər. Prezidentin etimadını doğrultmaq hər bir təyin olunan şəxs üçün böyük bir şərəf məsələsidir”.

***Arzu Qurbanlı***

## MN: ”Azərbaycan Ordusunun erməni mövqelərini atəşə tutması yalandır”



Müdafiə Nazirliyi (MN) ermənilərin sərhəddə Azərbaycan tərəfinin guya atəşkəsi pozması barədə yaydığı məlumata cavab verib. Nazirliyin Mətbuat xidmətindən SİA-ya verilən məlumatda bu informasiyanın yalan olduğu bildirilib.

”Azərbaycan-Ermənistan dövlət sərhədində Ordumuzun bölmələri tərəfindən guya qarşı tərəfin mövqeləri istiqamətində atəş açılması barədə erməni mətbuatında yayılan məlumat yalandır, dezinformasiya xarakteri daşıyır”, - məlumatda deyilir.

# Enerji müharibəsi, yaxud HİBRİD MÜHARİBƏ

**Qlobal müstəvidə, özü də mövcüd şəraitdə baş verən hadisələr həqiqətən də dünyanın diqqət mərkəzindədir və bu hadisələrin fonunda gözləntilər də, yanaşmalar da fərqlidir. Bununla belə, Qərb və Rusiya arasında qarşıdurmalar elə bir haldadır ki, tərəflərin bir-birinə qarşı hansısa addım atacağı hamı üçün gözləniləndir. Daha dəqiq desək, Qərb əgər Rusiyaya qarşı sanksiyalar tətbiq edirsə, deməli, Rusiyanın da adekvat şəkildə cavab verəcəyi əvvəlcədən düşünülən idi.**

Məlum olduğu kimi, Rusiya, daha doğrusu, bu ölkənin "Qazprom" şirkəti Avropaya "Şimal axını" kəməri ilə gündəlik qaz tədarükünün çərşənbə günündən 33 milyon kubmetr azalacağını elan edib, hansı ki bu, 20 faizə qədər azalma deməkdir. Sözsüz ki, şirkət bununla bağlı müəyyən səbəblər də açıqlayıb. Bildirilib ki, səbəb işləyən iki turbindən birinin işinin dayanmasıdır, amma heç də buna birmənalı şəkildə yanaşılmır və müxtəlif yanaşmalar mövcuddur. Məsələn, buna Avropaya qarşı yeni qaz müharibəsi kimi baxanlar da var. Təbii ki, məsələnin əsl mahiyyəti olmalıdır, var və bunun nədən ibarət olduğu, həqiqətən də, maraq doğurur.






Heç şübhəsiz ki, sanksiyalarla qarşı-arşıya, üz-üzə qalan Rusiya da öz növbəsində Avropada enerji böhranının daha da genişlənməsini istəyir, hərçənd bunu etiraf etməsə də. Doğrudur, Rusiya tərəfi problemin yaranmasında onların günahının olmadığını bildirir. Hətta təmir məsələsində gecikməsinin də onların səhvi ucbatından olmadığı deyilir. Görəsən, həqiqətən də belədirmi və məsələnin mahiyyəti nə ola bilər? Rusiyanın da öz növbəsində qarşı tərəfi sıxışdırmaq niyyəti güdəcəyi bu məqamda mümkün hal hesab olunur. Bunu, bu halı nəzərə alan bir çox ölkələrdə sanksiyaların, məhz Rusiyaya qarşı sanksiyaların aradan qaldırılması çağırışları da var və bu heç də əbəs yerə deyil. Sözsüz ki, qarşılaşdığı sanksiyaların fonunda Rusiyanın adekvat addımlar atacağı ağlabatandır və məntiqlidir. Elə buna görə də sanksiyaların yığışdırılması çağırışları peyda olub və Rusiyanın Avropanı sıxışdırmaqda məqsədi də elə bu ola bilər.

Qeyd olunduğu kimi, vəziyyət heç də əvvəlki halda deyil və Avropa Birliyinin özündə belə vahid mövqedən çıxış etmək istəyən ölkələrin sayı azalmaqdadır və sanksiyaların götürülməsi çağırışına qoşulanların sayı artır. Məsələn, Macarıstan prezidenti Pal Şmitt özü də belə bir çağırış edib. Ümumiyyətlə, bir ölkənin prezidentinin belə bir çağırış etməsi movcud şəraitdə sıradan bir hal hesab oluna bilməz və maraqlı məqamlardan xəbər verir.

Uzun müddətdir ki, Rusiyaya Qərbdən təzyiqlər olduğu bəllidir və bu təzyiqlərin hələ çox davam edəcəyi proqnozu verilir. Məsələ burasındadır ki, Rusiya tərəfi buna, bu təzyiqlərə laqeyd yanaşmaq niyyətində deyil və rəsmi Moskvanın adekvat tədbirlər görəcəyinə şübhə belə yoxdur. Eyni zamanda, Ukraynaya qarşı da Rusiyanın güzəştə getməyəcəyi gün kimi aydındır. Deməli, Rusiya həm Ukraynaya, həm də Qərbə təzyiqləri bundan sonra daha da artırmaq məqsədi ilə bütün vasitələrdən istifadə edə bilər. Doğrudur, Qərbin də öz adekvat reaksiyası gözlənilir və bunun da yaxın zamanlarda şahidi ola bilərik, amma hal-hazırda Avropaya Rusiyadan qaz tədarükünün 20 faiz azaldılması, sadəcə, Moskvanın təzyiq mexanizmindən istifadəsi kimi başa düşülür.



Onsuz da enerji təhlükəsizliyi problemi ilə üz-üzə qalan Avropa ölkələri Rusiyadan qaz tədarükünün 33 milyon kubmetr azaldılması ilə çətin duruma düşmüş olur, hansı ki, bunu hər iki tərəf yaxşı başa düşür və hətta Qərb özü də birmənalı olaraq bunun təzyiq vasitəsi olduğunu qəbul edir. Qərb başa düşür ki, qaz tədarükünün əhəmiyyətli dərəcədə azalması qiymət artımı ilə nəticələnəcək və artıq bunun ilk əlamətləri müşahidə də edilir. Artıq qazın hər min kubmetrinin qiymətinin 1950 dollar həcmində olması deyilənləri təsdiq edir. Təsdiq edir ki, Rusiya artıq öz təzyiqləri ilə müəyyən nəticələrə də nail olub. Məsələ burasındadır ki, Rusiyanın bununla kifayətlənməyəcəyi də bir reallıqdır. Rəsmi Moskva tədarükün azalması səbəbindən qazın qiymətinin daha da yüksək olacağına inanır. Xatırladığımız kimi, bir vaxt, daha dəqiq desək mart ayında qazın hər kubmetrinin qiyməti təqribən 2500 dollar həddində idi. Bu baxımdan da qazın qiymətinin daha da artacağına Rusiyanın ümid etməsində qeyri-adi heç nə yoxdur. Yəni, həqiqətən də yaxın zamanda qazın qiymətinin daha da yüksək ola biləcəyi mümkün haldır, hətta həqiqətə daha yaxındır. Moskva da elə bunu səbirsizliklə gözləyir. Gözləyir ki, Avropa təzyiq altında olaraq Rusiya ilə hesablaşmaq məcburiyyətində qalsın.

Sözsüz ki, qaz ixracatçısı olan ölkələrdən əlavə qaz mənbəyi əldə etmək istəyən Avropa İttifaqını başa düşmək çətin deyil. Avropa ölkələrinin qaza olan tələbatının ödənilməsi üçün əvvəlcədən, yəni qış yetişmədən tədbirlər görülməsi təxirasılmaz tədbirlərdəndir. Hazırda Avropa Birliyinin Əlcazairdən, Misirdən, eləcə də Azərbaycandan əlavə qaz mənbələri əldə etmək niyyəti də anlaşılandır və ehtiyat tədbirləri kimi tam yerində atılan addım olaraq dəyərləndirilir. Məqsədlər arasında ən vacib olanı həm də qiymət artımının qarşısının alınmasıdır.

Heç şübhəsiz ki, Avropa ölkələrinin qazla təchiz olunması barədə indidən qayğılanmasalar qış mövsümündə, qaza olan tələbatın, enerjiyə olan ehtiyacların daha da artması fonunda vəziyyət daha da gərginləşdirə bilər. Elə enerji təhlükəsizliyi deyiləndə də, təbii ki, bu məqamlar göz önünə alınır. Həm də göz önünə alınır ki, soyuq fəsillərin başlaması ilə enerjiyə olan tələbatın daha da artması ən azından qiymət artımı ilə başlayacaq və əksər Avropa ölkələrində ciddi problemlər ortaya çıxacaq. Bu baxımdam da Avropanın sıxıntısı tam gözlənilən idi və bu məqamda qazın tədarükünün əhəmiyyətli dərəcə azaldılması Rusiya tərəfindən çox güman ki, əvvəlcədən hesablanılmışdı və bu məsələdə başlıca niyyət də Avropaya, ümumilikdə Qərbə sıxıntı yaşatmaqla təzyiqlər etmək hesab olunur.

Əslində, nələrin baş verdiyi, nələr düşünüldüyü aydın olur. Bir tərəfdən Qərb sanksiyalar fonunda Rusiyaya təzyiq etdiyi, digər tərəfdən də Rusiya tərəfi enerji təchizatını azaltmaqla adekvat cavab verdiyi qənaətindədir. Rəsmi Moskva Avropaya sıxıntı yaşatmağa fokuslanıb və qaz ehtiyatlarının tədarükü baxımından artıq bunu edir də. İndi Avropaya məhz Rusiyadan qaz tədarükünün azaldılmasına bir növ enerji müharibəsi, yaxud hibrid müharibə kimi baxılır. Bu müharibənin isə hələ nə qədər davam edəcəyi barədə proqnoz vermək çətindir. Ən azından qarşıda soyuq fəsillərin, ələlxüsus qış fəslinin gəlişi ilə qaza, enerjiyə olan tələbatla üz-üzə qalacaq Avropa ya indidən hər şeyə hazırlıq görməli, yeni mənbələrdən qaz tədarükünə nail olmalı, ya Rusiya ilə ümumi razılığa gəlməli, ya da enerji baxımından ciddi problemlərlə qarşılaşacağını göz önünə almalıdır. Hələlik isə enerji müharibəsinin, yaxud hibrid müharibənin davam etdiyi müşahidə edilir.

***İnam Hacıyev***

# Dezinformasiyaların yayılmaması üçün nə etməliyik?

***Media kapitanları bu barədə fikirlərini açıqlayıblar***

Azərbaycanda söz azadlığı yüksək səviyyədə təmin olunur və mətbuatın informasiya əldə etmək, eləcə də ictimaiyyəti zəruri məlumatlarla təmin etmək sərbəstliyi var. Ölkədə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin sayı da belə deməyə əsas verir. Lakin bəzi şəxslər dövlət tərəfindən verilmiş fəaliyyət azadlığından sui-istifadə edərək, dezinformasiyalara, informasiya şantajlarına əl atır, reketçiliklə məşğul olurlar. Əlbəttə, jurnalist peşəsinə kölgə salmağa cəhd edən belə şəxslərlə mübarizə aparılır, ancaq son zamanlar növbəti "reket jurnalistlər"in saxlanılması sübut edir ki, bu məsələyə diqqətimiz daha da artırılmalıdır. Bəs, media nümayəndələri bu haqda nə fikirləşir?



SİA mövzu ilə bağlı media nümayəndələrinin fikirlərini öyrənməyə çalışıb:

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev** bildirib ki, mediada yalan,



açıq qərəz və reytinq xatirinə real olmayan, hərtərəfli araşdırılmamış yanlış materialların çap olunması illərdir mediada müzakirə olunan bir mövzudur: "Əlbəttə bu problemin miqyasını kiçiltmək üçün görülən işlərin nəticələri olsa da, hələ də bu problemi tam şəkildə aradan qaldırmaq mümkün olmayıb. Hələ də jurnalist etikasına və media qanunvericiliyinə uyğun olmayan yanaşmalar göstərən jurnalistlərə rast gəlmək mümkündür. Ümumiyyətlə ictimai-siyasi və dövlət həyatımızın bəzi tərəfləri var ki, həmin tərəflərlə bağlı mediada yanlış məlumatlarım aradan qaldırılması üçün illəri sərf olunması və bu prosesin uzun illərə hesablanması bəzi hallarda qəbulolunandır. Yəni ictimai-siyasi həyatımızın elə sahələri var ki, bi sahələrdə yalan və qərəzli materialların yayılmasının qarşısını birdəfəlik həll etmək və bu problemi aradan qaldırmaq üçün illər boyu çalışmaq yolverilləndir. Amma ictimai-siyasi dövlət həyatının elə istiqamətləri var ki, bu sahədələrdə belə problemin qarşısı dərhal alınmalıdır.

Dövlət və hərbi sirlər diqqətli olmaq lazımdır. Mətbuat nümayəndəsi olaraq söz və ifadə azadlığının məhdudlaşdırılmasının qəti şəkildə əleyhinəyəm. Çünki bizim məqsədimiz sivil, demokratik cəmiyyət qurmaqdısa, bu prosesdə hər hansı yanlışılığa yol verməmək olmaz. Jurnalistlərə təlqin olunmalıdır ki, onlar peşə maraqları ilə dövlət maraqları arasındakı sərhədləri dəqiq şəkildə müəyyənləşdirməlidirlər".



**"7news.az" xəbər portalının baş redaktoru Səbuhi Abbasovun** fikirlərinə görə, mətbuatda dezinformasiyaların yayılması bütün dünyada geniş şəkildə yayılıb: "Bu, bir virus kimi medianı öz cənginə alıb. Medianın inkişaf etməsi, sosial medianın yaranması, hər il müxtəlif funksiyalara malik sosial şəbəkənin peyda olması dezinformasiyaların çoxalmasına yol açır. Bu da bütövlükdə idarəolunmaz bir mexanizm əmələ gətirir. Hesab edirəm ki, burada müəyyən boşluqlar var və biz bu boşluqların yaranmasına imkan verməməliyik. Ümumilikdə dezinformasiyanın mahiyyəti, çəkisi və cəmiyyətə təsiri var. Dünyanın ən inkişaf etmiş, ən demokratik ölkələri belə milli maraqları tapdalayan, dövlətçiliyin sütunlarını zədələmək gücünə malik olan dezinformasiyaları birbaşa cinayət hesab edir. Düşünürəm ki, dezinformasiyaların yayılması, geniş ayaq açması bütövlükdə dövlətin milli maraqlarına toxuna bilər. 44 günlük Vətən müharibəsindən öncə və sonra dezinformasiyaların ölkədə baş verən proseslərə təsir sözün əsl mənasında cəmiyyətdə müəyyən təlaş yaratmağa müvəffəq olurdu. Düşünürəm ki, dezinformasiyaların konkret sərhədləri müəyyənləşdirilməlidir".

**"Demokrat.az" saytının baş redaktoru Vasif Həsənli** qeyd edib ki, "Media haqqında" qanun qəbul olunub: "Ümid edirəm ki, qanunun icrasından sonra artıq bu sahədə də müsbət dönüş yaranacaq. Mediamızda uzun illərdən bəri formalaşmış "reket" şəxslərə qarşı mübarizə daha sərt və sürətli aparılmalıdır. Bunun üçün müvafiq qanun da var. Azərbaycan hüquqi dövlətdir, reket fəaliyyətlə məşğul olan KİV-lər və onun nümayəndələri ciddi şəkildə araşdırılıb, üzə çıxarılmalı və ifşa edilməlidir. Yalnız bu halda nəticəyə nail olmaq olar. Digər tərəfdən isə medianın azadlığı da əlindən alınmamlıdır. Dövlət özü maraq göstərməlidir ki, onun müstəqil və peşəkar mediası formalaşsın. Belə olmadıqda, biz nəyi müşahidə edə bi-



lərik? İlk növbədə həmin sadaladığımız insanlar sabah sosial şəbəkələrə üz tutaraq, orada özlərinə yuva salacaqlar".

**"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadənin** sözlərinə görə, hər bir jurnalistin işlədiyi redaksiya, redaksiyanın isə cəmiyyət və dövlət qarşısında müəyyən öhdəlikləri var: "Yalan yazmamaq, cəmiyyəti çaşdırmamaq, ayrı-ayrı şəxslərin, o cümlədən dövlət qurumlarının etibarını zədələməmək bu öhdəliklərə daxildir. Xüsusilə Azərbaycan kimi düşmənlərlə çevrələnmiş ölkələrdə daha diqqətli olmaq, peşəkar yanaşma sərgiləmək çox vacibdir. Təəssüf ki, son vaxtlar İP xatirinə peşəkarlıq arxa plana keçib. Nəticədə yalan informasiyalar KİV-lərə sürətlə yol tapır, həqiqətə uyğun olmayan məlumatlar yayılır və qısa müddət ərzində ictimailəşir. Bu istiqamətdə vacib təd-



birlər görülür. Amma mən problemin yalnız inzibati resursların hesabına həll olunacağına əmin deyiləm.

Düzdür, qanunun aliliyi təmin olunmalıdır, müvafiq dövlət qurumu öz vəzifəsini yerinə yetirməlidir. Ancaq bununla paralel olaraq, həm də jurnalistlər arasında maarifləndirmə işləri aparılmalıdır. Jurnalistika təsadüfi adamlar ən çox üz tutduğu sahələrdən biridir. Bu cür səhvlərə də məhz o adamlar yol verirlər. Buna görə də jurnalistlərin özlərinin də spesifik sahələr üzrə maarifləndirilməsinə çox böyük ehtiyac var".

***Arzu Qurbanlı***

# Bəhruz Quliyev: "Reket mətbuatı"na qarşı bütövlükdə cəmiyyətin özü mübarizə aparmalıdır

Azərbaycan Respublikasının Konstitusiyasında, Prokurorluq və yeni qəbul olunmuş "Media haqqında" qanunda hərbi və dövlət sirri olan informasiyanın yayılması yasaqlanmışdır. Bu məsələ həm qanunla, həm də jurnalistlərin peşə davranış qaydaları ilə tənzimlənir. Çünki hər bir jurnalist həm vətəndaş, həm dövlət, həm də xalq qarşısında məsuliyyət daşıyır. Bu səbəbdən istinad olunmayan, mənbəsi düzgün göstərilməyən, tam araşdırılmayan və yayılması qadağan olan informasiyanın ictimailəşdirilməsi yolverilməzdir. Bu kimi hallar Azərbaycan dövlətinin sarsılmasına yönəlikdir və kiminsə sifarişi əsasında həyata keçirilir. Hətta deyərdim ki, bu, bir diversiyadır. Bunu Trend-in sualına cavabında "SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev deyib.

O bildirib ki, medianın özü həm də mənəvi-psixoloji bir si-



lahdır: "Yəni hər hansı informasiya bir insana zərər verib, kiminsə psixologiyasını pozub, onu depressiyaya salacaqsa, bu, cinayət sayılır. Ona görə də cinayət törədən şəxs cəzasız qalmamalıdır".

B.Quliyev mediada və sosial şəbəkələrdə Milli Orduya dair bilgilərin yayılması və ictimai rəyin yanlış yönləndirilməsi təmayülləri ilə bağlı da məsələyə münasibət bildirərək deyib ki, ordu ilə bağlı istənilən mövzuda diqqətli olmaq lazımdır. "Rəsmən təsdiq edilməmiş məlumatı yaymaq düzgün deyil. Kiminsə subyektiv fikrinə, baxışlarına əsaslanan formada ordu haqqında informasiyaların yayılmasının əleyhinəyəm. Rəsmi məlumatların mətbuatda səsləndirilməsi daha məqsədəuyğundur. Amma təbii ki, Müdafiə Nazirliyinin özü və aidiyyəti qurumları operativ olmalı, lazımi məqamda lazımi məlumatı yaymalıdır. Elə məqamlar var ki, məlumatın 1 saat gec və ya tez verilməsi də prosesə təsir edir. Amma istənilən halda ordu ilə bağlı sayt və qəzetlərdə fərdi yanaşmanın deyil, rəsmi məlumatın verilməsi daha məqsədəuyğundur", - deyə bildirib.

O, "reket jurnalistika" barəsində də məsələyə toxunaraq əlavə edib ki, "reket mətbuatı"na qarşı təkcə media strukturları, jurnalist təşkilatları deyil, bütövlükdə cəmiyyətin özü mübarizə aparmalıdır. "Bu baxımdan, hüquq-mühafizə orqanları ciddi tədbirlər görməli, bu şərəfli peşədən şərəfsizcəsinə istifadə edənlər qanun qarşısında cavab verməlidirlər. Biz vaxtilə bu cür fəaliyyət göstərən "mediaya" qarşı ictimai rəydən istifadə etmək istədik, "qara siyahılar" tərtib olundu. Amma görünür, bu cür mübarizə effektiv olmayıb. Əvvəllər məmur savadsızlığı bu işə daha cox imkanlar yaradırdı. İndi vəziyyət bir qədər dəyişib. "Reket jurnalistika"sı artıq amörf bir kütlə olaraq formasını dəyişib.

Düzdür, bununla bağlı Mətbuat Şurası müvafiq addımlar atıb və atır. Zaman-zaman müəyyən faydası da olub. Lakin dövlətin daha sərt addımları olmalı, habelə biz də bu sahədə cəmiyyəti maarifləndirmək səylərimizi xeyli artırmalıyıq. Habelə, bu sahədə qanunda olan boşluqlar da öz həllini tapmalıdır. Bu istiqamətdə MEDİA Agentliyinin başlatdığı fəaliyyətin uğurlu olacağını düşünürəm. Hesab edirəm ki, MEDİA Agentliyinin öncüllüyündə hazırlanan yeni qanun layihəsindən sonra reketlərə ağır zərbə dəyəcək. Bu qanunun müddəaları onların hərəkətini iflic edəcək və jurnalistikamız bu iyrənc məxluqlardan xilas olacaq", - deyə o əlavə edib.

# “Ana dilimizin saflığının qorunması hər birimizin həyat amalıdır”

“Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev bildirirdi ki, xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyil. Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə tariximizin, milli-mənəvi dəyərlərimizin, dilimizin və ədəbiyyatımızın qorunması prioritet məsələ olub. Dahi şəxsiyyət daim bu çağırışı edirdi ki, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı bir ideya - azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməlidir. Bu çağırış özündə milli-mənəvi dəyərlərimizin, dilimizin, adət-ənənələrimizin inkişaf etdirilməsini, onların yad təsirlərdən qorunmasını özündə ehtiva edir. İnkaredilməz faktdır ki, hər bir xalqın, millətin təqdimatında onun dili əhəmiyyətli rol oynayır. Əbəs yerə deyilmir ki, bir milləti, xalqı məhv etmək istəyirsənsə onun dilini əlindən al. Azərbaycançılığın ən parlaq səhifələri ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründən etibarən yazılmışdır. Ümummilli Lider o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində Azərbaycanda milli ruhun sıxışdırılmasına nəinki yol vermədi, əksinə, onu daha da yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacardı. Belə ki, respublika rəhbərliyinə gəldiyi ilk günlərdən ulu öndər Heydər Əliyevin gələcəyə hesablanan və milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili xüsusi diqqət mərkəzində idi. Ümummilli Liderin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında böyük cəsarət tələb edən belə bir addım məhz gələcəyin müstəqil Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri - bütün bunlar ulu öndər Heydər Əliyevin gələcək müstəqil milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələri idi”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.



Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan xalqı tarixinə sahib çıxan, milli-mənəvi dəyərlərini, dilini qoruyan və inkişaf etdirən xalq kimi tanınır: ”Dövlətimizin qeyd olunan istiqamətlərdə atdığı addımların və əldə edilən uğurlarının nəticəsidir ki, ölkəmiz 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etdi. Hər bir beynəlxalq tədbir iştirakçı ölkələrin malik olduğu imkanların, əhatə etdiyi mövzu baxımından əldə etdiyi uğurların və təcrübənin təqdimatında əhəmiyyətli rol oynayır. Bu baxımdan qeyd olunan tədbir ölkəmizin tarixinə, mədəniyyətinə bağlılığını nümayiş etdirdi.




Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tədbirdəki çıxışında bir daha bu məqamı diqqətə çatdırmışdır ki, Azərbaycanın UNESCO-nun dəyərlərinə və ideallarına bağlılığı onun milli hüdudlarından kənarda da öz təzahürünü tapır. Son illərdə dünya mədəni irsin qorunması sahəsində apardığımız fəaliyyətin coğrafiyası genişdir. Mədəni irs bizi bəşəriyyətin şanlı tarixinə aid olduğumuzu birlikdə düşünməyə vadar edir.”

YAP Xətai rayon təşkilatının sədri qeyd edib ki, azərbaycançılığın əsas tərkib hissəsi olan Azərbaycan dilinin qorunması və saflaşdırılması istiqamətində dövlətimizin həyata keçirdiyi tədbirlər davamlılığı ilə diqqət çəkir: ”1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da sürətləndirildi. Ulu Öndər yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyunun 18-də ”Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman imzalamışdır. İlk növbədə müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyan bu tarixi Fərman dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları özündə ehtiva edir. Ulu öndər Heydər Əliyevin çıxışlarında bu çağırış xüsusi yer tuturdu ki, digər dilləri də öyrənmək lazımdır, amma əvvəl öz ana dilimizi öyrənək, onu qoruyaq, yad təsirlərə salmayaq. ”Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir” söyləyən Ümummilli Lider onu da bildirirdi ki, ana dilini bilməmək, ana dilini qiymətləndirməmək şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.”

”Ulu öndər Heydər Əliyevin ana dilimizin qorunması üzrə siyasi xəttinə sadiqlik son 18 ildən artıq dövrün reallıqlarında öz əksini tapır” söyləyən Vüqar Rəhimzadə bildirib ki, Prezident İlham Əliyev tərəfindən 2004-cü ildə imzalanan ”Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncam əsasında hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanaraq çap edilir. Həmin il, eyni zamanda, ”Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, eləcə də 2007-ci ildə ”Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında” Sərəncamlar imzalandı ki, bu da ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqinin gerçəkləşdiyini söyləməyə əsas verir: ”Azərbaycan dilinin qorunmasına xidmət edən Dövlət Proqramı təsdiqləndi və uğurlu nəticələr göz önündədir. Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan ölkə Prezidenti 2013-cü ildə ”Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nı təsdiq etdi. Bu, milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisə kimi dəyərləndirildi. Dövlət Proqramının icrasında məqsəd Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılması idi.”

Diqqəti ölkə Prezidenti İlham Əliyevin 2018-ci ildə imzaladığı ”Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamına, həmçinin ”Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanına yönəldən Vüqar Rəhimzadə vurğulayıb ki, atılan bu addımların əsasında Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi dayanır. Yazılı və elektron KİV-lərin ictimai fikrə təsir imkanlarının böyüklüyünü nəzərə alsaq, Azərbaycan dilinin saflığının qorunmasında mətbuatımız öz sözünü davamlı şəkildə deməlidir.”

# “Bu gün Azərbaycan-Aİ münasibətləri çox yüksək səviyyədədir”

**“Bu gün Azərbaycan-Avropa İttifaqı münasibətləri çox yüksək səviyyədədir. Bunu son görüşlər, səfərlər göstərir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.**

Onun sözlərinə görə, Avropa İttifaqının Komissiyasının sədri Ursula von der Leyenin Azərbaycana səfəri və əldə olunmuş razılıqlar, digər bir tərəfdən Azərbaycanın nümayəndə heyətinin Avropa İttifaqına səfərləri, dialoqların yüksək səviyyədə olması və bu dialoqlar arasında əldə olunan razılaşmalar, sənədlər, mühüm qərarla münasibətlərin yüksək səviyyədə olmasından xəbər verir. Bu da onu göstərir ki, Azərbaycan da Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır: ”Azərbaycan etibarlı enerji təminatçısı qismində illər boyu çıxış edib. Hazırda Avropa İttifaqı çox ciddi enerji böhranının astanasındadır. Artıq bu böhranı yaşayır. Bu böhrandan çıxış yolu yalnız Azərbaycan kimi etibarlı tərəfdaşlarla münasibətlərin qurulmasından keçir.



Bundan əlavə olaraq, nəqliyyat infrastrukturun istifadəsi üçün atılan addımlar da çox önəmlidir. Yəni Avropa İttifaqı bu infrastrukturu istifadə etmək niyyətindədir. Bu, infrastruktur Avropa İttifaqını təkcə Cənubi Qafqaz ölkələri ilə yox, eyni zamanda Mərkəzi Asiya ölkələri ilə birləşdirir. Digər bir tərəfdən Azərbaycan tranzit imkanları və iqtisadi potensialı Avropa ilə birgə layihələrin həyata keçirilməsinə imkan verir. Bu da Azərbaycan ilə Avropa İttifaqı arasındakı dialoqu yüksək səviyyəyə gətirib çıxardır”.

***Arzu Qurbanlı***

# “Yalan məlumatlar ordunun nüfuzuna xələl gətirir”



“Son zamanlar bəzi sosial şəbəkə istifadəçiləri heç bir rəsmi qurumla dəqiqləşdirilməmiş məlumatlar yayırlar. Bu məlumatlar əslində Azərbaycan Ordusunun nüfuzuna xələl gətirir”. SİA-nın xəbərinə görə, bunu Mətbuat Şurasında keçirilən tədbirdə şuranın sədri Əflatun Amaşov deyib.

”Bu cür saxta məlumatların yayılması eyni zamanda dövlətimizin təhlükəsizliyi ilə bağlı həyata keçirdiyi işlərə kölgə salır. Həmçinin insanlar arasında müəyyən ajiotaj yaradır”, - o bildirib.

# Turizm imkanlarına malik bölgələrimiz

## Prezident İlham Əliyev: "Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir"



Azərbaycanda turizmin maddi-texniki bazasının möhkəmləndirilməsi, turizmin inkişafına dair dövlət proqramlarının icrasının məntiqi nəticəsi olaraq Azərbaycan turizm sahəsində böyük uğurlar qazanmışdır. Bu sahədə dövlətin apardığı siyasət turizmin inkişafına güclü təkandır və Azərbaycanda turizm sektoru sürətlə inkişaf etməkdədir. İnşa olunan otellər, yüksək standartlara uyğun xidmətin göstərilməsi diqqətdədir. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu ayrıca qeyd etmək lazımdır. Azərbaycanda turizm imkanlarının genişləndirilməsi, yeni turizm marşrutlarının açılması, qış turizminin inkişaf etdirilməsi ölkəmizdə turizmin inkişafı üçün əlverişli şəraitin olduğunu göstərir. Azərbaycanın hər bir guşəsində geniş imkanlar yaradılıb. Ölkəmizin cənub bölgəsinin də əsrarəngiz təbiəti var. Zümrüd meşələri, bulaqları, laləli yamacları, yarpızlı dərələri diqqəti çəkəndir. Buradakı turizm istirahət mərkəzləri olan "Çənlibel", "Təbəssüm", "Meşəbəyi", "Ağgöl", "Qala" və s. istər yayda, istərsə də qışda turistlərin üzünə açıqdır. Lerik ölkəmizdə turizm diyarı, uzunömürlülər məskəni kimi tanınır. Son illər Lerik-Kəlvəz, Noda-Şingədulan-Xanagah, Piran-Hamarat-Vıjaker yollarının istifadəyə verilməsi diyarda yeni turizm mərkəzlərinin açılmasına səbəb olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Araz Əhmədovu Masallı, Əkbər Abbasovu Lerik və Elvin Paşayevi Göygöl rayon icra hakimiyyətlərinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən bildirdiyi kimi, "Göygöl, Masallı və Lerik rayonlarının turizm potensialı çox zəngindir və bu rayonların füsunkar təbiəti bizim böyük sərvətimizdir - meşələr, dağlar, bulaqlar, çaylar, şəlalələr".

### "MİNLƏRLƏ İNSAN HƏR GÜN, XÜSUSİLƏ YAZ-YAY MÖVSÜMLƏRİNDƏ GÖYGÖL GÖLÜNƏ GƏLİR"

Görüşdə Cənab Prezident bu rayonların sözün əsl mənasında, turizm mərkəzinə çevrilməsinin əsas vəzifələrdən biri olduğunu qeyd edib: "Son illərdə bir çox işlər görülüb. Mən dəfələrlə Göygöl, Lerik və Masallı rayonlarında olarkən, o cümlədən bu məsələ ilə də maraqlanırdım və öz tövsiyələrimi verirdim: "Bilirəm ki, bu rayonlarda müasir istirahət zonaları, otel kompleksləri inşa edilib və əlbəttə ki, bu proses daha geniş vüsət almalıdır. Bir neçə il bundan əvvəl, hətta Vətən müharibəsinə qədər biz Göygöl gölünü də ictimaiyyət üçün açdıq. Mən əvvəlki illərdə, müharibədən əvvəlki illərdə də maraqlanırdım ki, nə üçün Göygöl gölümüzə, bizim təbii sərvətimizə insanların yaxınlaşması, yaxud da ki gəlişi mümkün deyil. Bunu onunla əsaslandırırdılar ki, təmas xəttinə yaxın olan ərazidir. Ondan sonra araşdırmağa başladıq və gördük ki, Göygöl gölü turizm obyekti kimi və bu gölün ekoloji vəziyyəti, ekosistemi qorunmaq şərtilə açıla bilər və bunu da etdik. İndi minlərlə insan hər gün, xüsusilə yaz-yay mövsümlərində Göygöl gölünə gəlir, bu gözəl mənzərəni seyr edir, xüsusilə Vətən müharibəsindən sonra ki, artıq biz düşməni torpaqlarımızdan qovduq".

Vurğulayaq ki, dağ gölü olan Göygöl Azərbaycanın ən gözəl və ecazkar təbii su hövzəsidir. Göygöl Gəncə şəhərindən 25 kilometr cənubda eyniadlı rayonda, Murovdağın şimal ətəklərində dəniz səviyyəsindən 1500 metrdən çox yüksəklikdə yerləşir. Bu göl 1139-cu ildə Gəncə şəhəri yaxınlığında baş vermiş dağıdıcı zəlzələdən sonra Kəpəz dağının dağılan zirvəsinin Ağsu çayının qarşısını kəsməsi nəticəsində yaranıb. Yaranan şəffaf sulu hövzə Göygöl adlandırılıb. Buranın nadir təbiətini, flora və faunasını qorumaq üçün 1965-ci ildə Göygöl Dövlət Təbiət Qoruğu yenidən təşkil edilib. Göygölün şimal sahili və onun ətrafı populyar istirahət zonasıdır. Bu yerlərin havasının tənəffüs yolları və əsəb sistemi xəstəliklərindən əziyyət çəkənlər üçün müalicəvi əhəmiyyəti olduğu hesab edilir. Gölün ətrafında yay mövsümündə turistlərin sevimli məkanı olan, müxtəlif turist bazaları, istirahət evləri, pansionatların olduğu Hacıkənd kurort zonası yerləşir. Bir neçə turist marşrutu da bu yerlərdən keçir.

### "GÖYGÖL RAYONUNDAN KƏLBƏCƏR RAYONUNA YOL AÇILIR, TUNEL ÇƏKİLİR"

"Əlbəttə ki, bu gözəl yerin turizm üçün çox böyük əhəmiyyəti var. Eyni zamanda, nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır" - deyə Prezident bildirib: "Digər rayonlarda da turizm potensialı çox zəngindir. Vaxtilə Lənkəran-Lerik yolu bərbad vəziyyətdə olduğu üçün Lerik rayonuna demək olar ki, turizm axını yox idi. Mənim göstərişimlə yol əsaslı şəkildə təmir olundu, yenidən quruldu. Lerik rayonuna da turizm axını başlamışdır. Bu rayonun da çox böyük tarixi, çox böyük sərvətləri var. Masallı rayonunun da həmçinin. Masallı rayonunun dağlıq hissəsi, düzən hissələri var. Bir daha demək istəyirəm ki, bu rayonların turizm potensialı çox zəngindir".

Etiraf edək ki, turizmin qloballaşması müasir dövrün reallığıdır. Turizmin təşkilinə üstünlük verən ölkələr dünyanı tam şəkildə qəbul edir, onun hər yerində sülhün, əminamanlığın qorunmasına çalışırlar. Çünki müharibələr, münaqişələr, terror hadisələri turizmin inkişafına mane olan ən başlıca amillərdir. Bu gün ölkəmizdəki sabitlik, əmin-amanlıq turizmin də inkişafında önəmli faktordur.

Reallıqlar göstərir ki, müasir dövrümüzdə Azərbaycanın turizm ölkəsinə çevrilməsi və dünya arenasında öz sözünü deməsi üçün böyük potensialı vardır. Zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai coğrafi mövqeyi, eləcə də Xəzərin sahil zonaları turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, turizm insanların səyahətlərinin təşkilinə, onların mənəvi rahatlığına xidmət etməklə bərabər, maarifləndirmək, dünyagörüşünün inkişafı baxımından da əhəmiyyət kəsb edən bir sahədir.

### CARİ İLDƏ 330 MİNDƏN ÇOX TURİST AZƏRBAYCANA SƏFƏR EDİB

Bütün bunlarla yanaşı, turizm milli maraqların və iqtisadi inkişafın əsas istiqamətlərindən biridir. Əlbəttə ki, Azərbaycanda turizmin inkişafı məsələsi təkcə sosial-iqtisadi əhəmiyyət kəsb etmir. Çox mürəkkəb məkanda yerləşən ölkəmizin dünyaya daha real şəkildə təqdim edilməsində də təsirini göstərir. Bu gün işğaldan azad olunan ərazilərimizdə böyük turizm imkanları var. Kəlbəcərin isti suyu, Şuşanın, Laçının sərin bulaqları və əzəmətli dağları, meşələri. Turizm səfərlərinə gələn xarici ölkə vətəndaşlarına ölkəmizin tarixi və mədəniyyəti, onun mənəvi dəyərləri haqqında geniş məlumatların çatdırılması Azərbaycanın dünya ölkələrinə tanıdılması baxımından diqqətəlayiqdir. Bütün bu reallıqları nəzərə alaraq Azərbaycan turizmi sistemli şəkildə inkişaf etdirilir.

Postpandemiya dövründə bütün dünyada olduğu kimi, Azərbaycanda da turizm sektoru canlanmağa başlayıb. İlin ilk dörd ayının statistikasına əsasən, 2021-ci illə müqayisədə bu il artım var. Yəni, bu il 330 mindən çox xarici ölkə vətəndaşı Azərbaycana gəlib. Bu ilin ilk dörd ayı ərzində ölkəmizə gələnlər arasında Türkiyə vətəndaşları ikinci yerdədir, aprel ayı üzrə isə türkiyəlilər ilk sıradadırlar. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 86 faiz artım deməkdir. Ümumiyyətlə, pandemiyadan əvvəlki və sonrakı rəqəmləri müqayisə etsək, Türkiyədən Azərbaycana səfər edənlərin sayında kifayət qədər artım müşahidə olunur.

Bununla yanaşı, cari ilin ilk dörd ayının statistikasına əsasən, Azərbaycana səfər edən xarici ölkə vətəndaşları arasında ruslar birinci sıradadır. Türkiyə ikinci, İran isə üçüncü yerdədir. Ölkəmizə gələn əcnəbilərə baxdıqda isə ilk onluğa daxil olan ölkələr arasında Gürcüstan, Ukrayna, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirliyi, Qətər, İsrail, Hindistan və Pakistan da yer alır.

Ölkəmizin ayrı-ayrı bölgələrində nadir memarlıq abidələri vardır. Qobustan qaya təsvirlərini dünya miqyasında görmək istəyən çoxlu insanlar vardır. Qədim insan məskənlərini görmək, onlarla tanış olmaq hamı üçün maraqlıdır. Azərbaycana gələn hər kəs ölkəmizin tarixini, coğrafi mövqeyini görür. Avropa və Asiya qovşağında yerləşən Azərbaycanın iqlimi, rəngarəng təbii-coğrafi quruluşu bütün il boyu xaricdən turist qəbul etmək imkanına malikdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

ANALİTİK + AKTUAL

# İnformasiya özbaşınalığı qarşısı necə alınmalı?

**Sosial şəbəkələrin, habelə sayt və internet "TV"lərin müsbət halda verə biləcəkləri fəaliyyət prinsipləri qalır bir kənarda, mənfi siqnallar məhz qorxu, yalan, böhtan, şər üzərindən qurularaq piramidalaşır, auditoriyanın şüuraltı hiss nöqtələrinə sızdırılır**

Son dövrlər, xüsusilə 44 günlük İkinci Qarabağ müharibəsindən sonra istər bəzi ölkə KİV-lərində, istərsə də sosial mediada ardıcıl olaraq ictimai rəyi çaşqınlığa doğru sürükləyən dezinformasiya xarakterli məlumatların tirajlanması faktları artmağa başlayıb. Bu arzuolunmaz fakt həm də onu göstərir ki, yalnız media sahəsi deyil, həm də internet məkanında mövcud olan yüz minlərlə istifadəçilər bu və ya digər şəkildə istədikləri, yaxud sifariş aldıqları tərzdə qeyri-ciddi, bəzən isə təhlükəli informasiyaları izləyici auditoriyalarına sırıyırlar. Hətta istənilən şəxsin sayt açması qalsın bir yana, hər bir fərd ayrıca olaraq özünə internet resurslarında onlara rahat imkan yaradan şəkildə "TV"-lər açıb, dırnaqarası fəaliyyətlərini cəmiyyətin şüur altına sızdırırlar. Yalan, böhtan, şantaj, qisas və s. tipli amillərin isə bütövlükdə dövlətin informasiya məkanına nə qədər ciddi təhlükələr yaratması faktlarına isə demək olar ki, çoxları vara bilmirlər. Üstəlik, cəzasızlıq mühiti bu kimi məsələlərin yağışdan sonra çıxan göbələklər kimi artmasına şəraitlər yaradır. Məsələn, götürək Facebook sosial şəbəkəsini - bu istiqamətdə baş verən özbaşınalıq halları məhz cəzasızlıq reallığından irəli gəlməkdədir. Ölkədəki ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş qanunsuz çağırışlardan tutmuş milli-mənəvi dəyərlərimizin ayaq altına atılaraq tapdanmasına qədər baş verən yüzlərlə dəlillər də deyilənləri kifayət qədər isbatlamaqdadır.











**Beləliklə, Azərbaycanda azad söz, azad ifadə amili dezinformasiya xaosu ilə dəyişik salınır və eyni zamanda, sağlam düşüncəli cəmiyyətin beyni yuyularaq onun yerinə sanki aqressiya xarakteristikası yazılır**

Müvafiq hüquq-mühafizə qurumları misal üçün, qanunsuz küçə yürüşünə səslənişini Facebook sosial şəbəkəsi üzərindən edən şəxsi qanuna riayət etməyə dəvət edərkən həmin şəxs və əlbəttə ki, onun ölkədaxili-ölkəxarici sifarişçiləri dərhal haraya qaldırılar ki, sən demə, "Azərbaycanda söz azadlığı boğulurmuş" (?!) Məhz bu kimi incə məqamların araşdırılması zamanı digər nüanslar da üzə çıxır və bəri başdan qeyd edək ki, bununla bağlı olan çoxsaylı qanunların işlək vəziyyətə gətirilməsi üçün qətiyyətli addımlar atmağın, qərarlar qəbul etməyin tam zamanıdır. Çünki hər şeyə rəğmən, bu haqda qanunlarımız mövcuddur, sadəcə onların tətbiqi nədənsə gecikdirilir, ya da ümumiyyətlə istifadə olunmur...

Məsələ yalnız Facebook-la da başa çatmır. Daha bir paralelliyi Tik-Tok sosial şəbəkəsi təşkil edir. Etiraf edək ki, nədənsə bu şəbəkədə intellektualıq prinsipi daha qaba, daha kobud mənbələrə söykənir. Bu şəbəkədə olan insanların əksər çoxluğu (ölkəmizdəki istifadəçilər nəzərdə tutulur-R.R.) heç bir müsbət cəhəti qəbul etməyərək açıq-aşkar milli intellekt dəyərlərini deqradasiyaya uğradırlar.

YouTube kanalları vasitəsi ilə də milli istifadəçilərimiz daha çox qeyri-ciddi informasiyalara meyillənir, həmçinin bu şəbəkə üzərindən də yayılan dezinformasiyalar birbaşa insan beyinlərinin yuyulmasına hesablanır.

**Bir sözlə, təqdim olunan sosial şəbəkələrin, habelə sayt və internet "TV"lərin müsbət halda verə biləcəkləri fəaliyyət prinsipləri qalır bir kənarda, mənfi siqnallar məhz qorxu, yalan, böhtan, şər üzərindən qurularaq piramidalaşır, auditoriyanın şüuraltı hiss nöqtələrinə sızdırılır**

Artıq tam qənaətə gələ bilərik ki, çoxsaylı saytlarla yanaşı, sosial media Azərbaycan cəmiyyətinin ümumi mədəniyyət prizmasının təməllərini dağıtmağa başlayıb. Bu problemlərin mövcudluğu isə yuxarıda da qeyd olunduğu kimi, CİDDİ TƏHLÜKƏDİR!

Bütün bunlardan nəticə hasil edərək onu da deyə bilərik ki, Azərbaycanda fəaliyyət göstərən müvafiq güc və hüquq-mühafizə strukturlarının, habelə rabitə, informasiya və yüksək texnologiyaları ilə məşğul olan dövlət qurumlarının daha qətiyyətli addımlar atmaları üçün tələblər artmağa başlayıb. Biz ən azından qardaş Türkiyənin metod və vasitələrindən istifadə etməklə qarşıya çıxan problemləri həll edə bilərik. Belə ki, Türkiyədə mövcud olan problemlər necə deyərlər, 2+2 xarakterində həll edilir - qanunları pozanların akkauntları dərhal bağlanır!

**Sual yaranır: Bəs mübarizə üsullarını daha hansı istiqamətdə yönəltmək olar?**

Təbii ki, mübarizə vasitələrini kor-koranə də aparmaq olmaz. Məlumdur ki, əgər hər hansı dezinformasiya şəbəkəyə daxil olursa, artıq onun həmin şəbəkədən çıxması qeyri-mümkünlüyə çevrilir, yəni sürətli paylaşım işə salınır. Özü də bir şəbəkədən digər fərqli şəbəkəyə paylaşmaq da hazırkı dövrdə çox asan bir məsələdir. Lakin bildiyimiz kimi, müvafiq strukturlarımız da hazırkı dövrə qədər boş dayanmayıblar və dəfələrlə informasiya təhlükəsizliyinə rəvac olan tərəfləri ifşa ediblər, amma bu mübarizə üsulu bu da bəs etmir. Məsələn, deyə bilərik ki, sosial media KİV-ləri üstələməyə başlayıb və hətta KİV-lər əsas informasiyalarını sosial medialardan götürürlər bu isə həqiqətən ciddi təhlükə siqnalıdır. KİV haqqında yeni qanun da mövcuddur, amma bu qanunun tam sürətlə işə salınması artıq bir tələbdir!

**Zərurətdən doğan qəti təkliflər...**

Bu günlərdə bir sıra sayt və sosial media rəhbərlərinin Baş Prokurorluğa dəvət edilmələri, onlara müəyyən izahların verilməsi, üstəlik bir neçə nəfərin qanunun verdiyi imkanlar qarşılığında həbs olunması, artıq belə düşünməyə imkan verir ki, dövlət baş verən özbaşınalıqların qarşısını almaq üçün daha ciddi işə başlayıb. Beləliklə, qanunlarımız var, qalır onları icra etməyə və bu işdə də vətəndaş nəzarəti, ictimai nəzarət prinsipləri işə salınmalıdır. Dövlət, milli-əxlaqi və mənəvi dəyərlərə xələl vurula biləcək istənilən informasiya barədə müvafiq strukturlara məlumatlar verilməli və onu istehsal edən, yayan şəxslər qanunun qarşısına çıxarılmalıdırlar!

Hətta təklif etmək olar ki, informasiya siyasətinə də yeni səhifə açılsın və bu siyasətə yenidən baxılsın. Misal üçün, Baş Prokurorluğa, məhkəmələrə mövcud xaosla mübarizə aparmaq üçün daha geniş məkanlar verilsin. Bunu isə etmək çox asan bir məsələdir.

Biz unutmamalıyıq ki, ölkə Prezidenti İlham Əliyev ölkəmizə olan xarici təhdidlərlə bağlı son çıxışlarının birində xüsusilə vurğulamışdı ki, artıq hüquq və güc dövrü gəlib və mövcud problemlərin aradan qaldırılması, gələcək təhlükələrin məhv edilməsi, yuvasındaca boğulması üçün həmin reallıqdan çıxış etmək zərurəti göz önündədir!

*Rövşən RƏSULOV*

# Repetitorluqla bağlı təbilin çalınma zamanıdır?







Azərbaycanda dövlət təhsilin inkişafına xüsusi önəm verir. Məhz bu diqqət və qayğının fonunda təhsilin keyfiyyətinin artırılması, həmçinin, bu yöndə müxtəlif dövlət və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi birbaşa cəmiyyətimizin elmi səviyyəsinin və təfəkkürünün inkişafına xidmət edir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialı reallaşdırmağa yönəldir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayıb. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Respublikanın şəhər və rayonlarında 3200-dən çox məktəbdə tikinti, əsaslı təmir-bərpa və yenidənqurma işləri uğurla aparılıb. Bunun nəticəsində təxminən 1 milyondan artıq şagirdin təhsil şəraiti yaxşılaşıb, birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb. Dövlət başçısının yüksək diqqəti əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsinə yönəldilib. Əlbəttə ki, müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi əsas amildir.

## VƏTƏNDAŞLARIN SAVAD ALMALARI ÜÇÜN BƏRABƏR İMKANLAR YARADILIB

Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xeyli dərəcədə genişlənib. Hazırda təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsi davam etməkdədir.

Məktəblərdə şagirdlər 1-ci sinifdən 11-ci sinif də daxil olmaqla pulsuz olaraq dərs vəsaitləri ilə təmin olunurlar. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagird kontingentli qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəblər də quraşdırılıb. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Bütün bu və ya digər amillər şagirdlərin yüksək təhsilə yiyələnməsinə istiqamətlənib və nəticə etibari ilə Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Demək, insanların savad almaları üçün bərabər imkanlar yaradılıb və hər kəs ölkəmizdə pulsuz təhsil almaq hüququna malikdir.

## MƏKTƏBLƏRDƏ VƏZİYYƏT: REPETİTORSUZ KEÇİNMƏK MÜŞKÜLƏ ÇEVRİLİB

Belə olduğu halda görəsən, şagirdlərin əlavə olaraq pullu təhsil almalarına ehtiyac duyulurmu? Belə ki, müasir dünyamızda repetitorlara nə dərəcədə ehtiyac var? Əvvəlcə diqqəti elə sözün leksik mənası üzərinə çəkək. Şagirdə verilmiş ev tapşırığını yerinə yetirməyə kömək edən müəllim, yaxud şagird və ya tələbəni imtahana hazırlaşdıran şəxs. Bəzi mənbələrdə isə göstərilir ki, "repetitor" latın sözü olub "təkrar edən şəxs", "ev müəllimi" deməkdir. Tarixilik baxımından Azərbaycanda repetitorluq ənənəsinin XIX əsrə təsadüf etdiyi göstərilir. Həmin zamanda yüksək mənsəb sahibləri öz uşaqlarına əsasən, xaricdə təhsil almış, bir neçə əcnəbi dili bilən, pedaqoji təcrübəsi olan mürəbbiyələr tuturdular. Onlar uşaqlara yazıb oxumaqla yanaşı, musiqi, rəqs, xarici dil, davranış qaydaları, süfrə mədəniyyəti və s. etik normaları öyrədirdilər.

Bəs bu günün repetitorları kimlərdir? Əsasən, orta ümumtəhsil məktəblərində dərs verən müəllimlər. O müəllimlər ki, parta arxasında oturan şagirdlərə 45 dəqiqə ərzində nəzərdə tutulmuş dərs proqramı əsasında dərs verir. Nədənsə, valideynlər bunu qənaətbəxş hesab etmir və sinifdən kənar övladına əlavə olaraq müəllim tutur. Günümüzün reallığı elə bir mənzərə yaradıb ki, repetitorsuz keçinmək müşkülə çevrilib. Əksər valideynlər demək olar ki, övladı 7-ci sinfə çatar-çatmaz repetitor axtarmağa başlayır.(Hətta ibtidai siniflərdən belə başlayaraq) Nə baş verir? Ümumtəhsil məktəbdə dərs alan şagird məktəbdən yayınır və nəticə etibarı ilə yeniyetmə məktəbdə müxtəlif fənlər ətrafında ümumi biliklərə yiyələnmək əvəzinə, fərdi qaydada bir neçə fənni (gələcəkdə imtahan verəcək) mükəmməl öyrənməyə başlayır. Onu da qeyd edək ki, bəzi hallarda valideynlər sinifdə müəllimin yaxşı dərs keçmədiyini qeyd edirlər. Əgər müəllim sinifdə o biliyi verə bilmirsə, repetitor kimi necə verir? Onda belə bir sual ortaya çıxır. Bəlkə, müəllim qəsdən elə bir mühit formalaşdırır ki, şagird əlavə olaraq pul ödəyib repetitor (elə onun özünün) yanına getsin. O zaman burada müəllimin marağı faktoru dayanır.

## İDRAKI FƏALLIĞIN VƏ MƏNTİQİ TƏFƏKKÜRÜN FORMALAŞDIĞI MƏKANDAN UZAQ DÜŞMÜŞÜK

Bildiyimiz kimi, Azərbaycanda ümumi orta məktəb təhsili üç pillədən - ibtidai, ümumi orta və tam orta təhsildən ibarətdir. İbtidai təhsilin məqsədi uşaqlarda oxumaq, yazmaq və hesablama qabiliyyəti yaratmaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətləri formalaşdırmaqdan ibarətdir. Ümumi orta təhsilin məqsədi şagirdlərdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrakı fəallığın və məntiqi təfəkkürün formalaşmasını, təhsil proqramına (kurikulumuna) daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərin yaradılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətini müəyyənləşdirmək bacarığını və s. təmin edir. Tam orta təhsil pilləsində isə şagirdlərin istedad və qabiliyyətinin reallaşdırılması, onların müstəqil həyata və peşəseçməyə hazırlanması, fəal vətəndaş mövqeyinin formalaşdırılması, milli və ümumbəşəri dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşması və tolerantlığı, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur. Demək, tam orta təhsil ümumi orta məktəb təhsilinin hər üç pilləsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsi məntiqə söykənir. Əgər biz cəmiyyətə yetkin, savadlı gənclər ordusunu yetişdiririksə, onda məktəbli 1-ci sinifdən 11-ci sinif daxil olmaqla tədris olunan materialları mənimsəməlidir. Əks halda, bütün elm sahələrinə açılan yolu, qoyulacaq təməlin məktəb partası arxasında başlandığını unutmamalıyıq. Unutmamalıyıq ki, fərdi təhsil arxasınca qaçan şagird digər fənnlərə qarşı biganəlik göstərər və nəticə etibarilə digər elm sahələrində xəbərsiz olaraq həyata vəsiqə alır.

## ÜMUMİ ORTA TƏHSİL, YOXSA FƏRDİ TƏHSİL?

Əlbəttə ki, əlavə təhsil şagirdlərə əlavə yük və valideynə əlavə xərc deməkdir. Tutaq ki, bir valideyn övladını bir fənn üzrə repetitorun yanına qoyursa, aylıq ən azı 80 manat ödəməlidir. 3 və ya daha artıq repetitora ehtiyac duyularsa, onda 240-320 manat arasında pul ödəməlidir. Burada sual yaranır: təhsilimiz pulsuzdurmu? Etiraf edək ki, sovet təhsil sistemi dağıdıldan sonra repetitor xidmətindən istifadə olunmağa başlanıldı. Düzdür, sovet dövründə də bəzi şagirdlər repetitorlara yönəldilirdi. Amma demək olar ki, sinifdə olan 30-35 şagirddən yalnız biri repetitora müraciət edə bilərdi, yaxud heç təsadüf olunmazdı. Amma ali təhsil müəssisələrinə daxil olan abituriyentlər əyani şöbəyə hər fənn üzrə "5" bal almaqla, yəni dörd "5" qiyməti almaqla qəbul ounurdu. Təbii ki, attestat balı da nəzərə alınırdı və bu da "5" yaxud "4,5" olmalıydı. Demək, hər il müxtəlif fakültələrə əyani təhsil üzrə imtahan verən abituriyentlər ümumilikdə 25-24 bal toplamaqla tələbə adını qazanırdılar. Etiraf edək ki, bəzi istisnalar da var idi. Məsələn, ixtisas üzrə çox stajlılıq, yaxud əsgəri xidmət kimi müəyyən güzəştlər istisna deyildi. Hətta attestat balı "3", "3,5" olanların sənədləri belə qəbul olunmurdu. İndi gəlin görək bu günün məzunlarından ölkə üzrə nə qədər abuturiyet yüksək nəticə torplıyır? 25 bal toplamaq bizim indiki sistemlə 700 bal toplamaq deməkdir. Hər ixtisas üzrə onlarla məzun 25 bal toplayırdı. Bu günün reallığı isə tamamilə başqa bir mənzərə yaradır. Tutaq ki, 7-ci sinifdən hazırlığa gedən şagird sonda qəbul imtahanlarında bəzi hallarda 150-200 bal toplayır. Bu da başqa bir mövzudur. Belə bir balla ali məktəb tələbəsi adını qazanmaq nə dərəcədə düzgündür. Tutaq ki, 600-700 bal toplayanla 150-200 bal toplayan tələbə bir auditoriyada təhsil alır. Bu da məsələnin digər tərəfidir.

Qayıdaq yenə də repetitorluq məsələsinə. Evdə uşaqların təhsili ilə məşğul ola bilməyən valideynlər övladlarına aşağı sinifdən repetitor tuturlar. Əgər məktəblər pulsuz təhsil verirsə və təhsilalan üçün istənilən şərait yaradılıbsa, niyə repetitor? Təbii ki, hər bir valideynin bu gün arzusu övladını ali təhsilli görməkdir. Bu istək də repetitor məsələsini gündəmə gətirən amillərdəndir. Əgər sinifdə dərs verə bilməyən öyrədən, kənarda - evdə böyük istedada sahib olur? Valideynlərə övladını əlavə saatda öyrənməyə ehtiyac duyduğunu bildirən müəllimlər niyə siniflərdə uşaqlara yaxşı dərs vermirlər. Təhsilə ayrılan xərc gələcəyə qoyulan vəsaitdir. Dövlətimiz tərəfindən də bu vəsait lazımı qədər ayrılıb. Bəlkə, şagirdlərin dərsi lazımı səviyyədə mənimsəməsi dərs yükünün ağırlığı ilə bağlıdır. Yaxud, imtahan suallarının dərs proqramından əlavə olmasıdır? Sual doğuran məqamlar çoxdur.

## MƏKTƏBLƏ SALINAN KÖRPÜDƏ UÇURUM

Gəlin repetitor yanına gedən məktəblinin durumuna nəzər salaq. Şagird artıq yavaş-yavaş məktəbdən soyuyur. Dərslərdən yayınır və belə desək, daha məktəb qapısını belə açmır və deyir ki, onsuz da məktəb mənə nə verir ki? Həm də vaxt məhdudiyyəti yaranır. Onu da qınamayaq, bəzi hallarda şagird vaxt bölgüsünü belə düzgün bölüşdürə bilmir. Zehni və fiziki yorğunluğa tab gətirmək də çətindir. Bununla da yeniyetmə ümumi fənlərdən kənarda qalır, düşüncə tərzi daralır. Bəzi şagirdlər əlavə olaraq həm də idmanla məşğul olur, xarici dil və kompüter kurslarına da gedirlər. Belə olan halda vəziyyət daha da gərginləşir.

Artıq demək olar ki, cəmiyyətimizdə bütün ailələrdə repetitorlara müraciət var. Ekspertlərin də fikrincə repetitor yanına getmək həm sağlamlıq, həm sosiallaşma, həm də ən əsası ailələrin büdcəsinə ziyanlıdır. Həm də o da vurğulanır ki, repetitorluq bir çox dünya ölkələrində olsa da, daha çox postsovet ölkələrini əhatə edir.

Əlbəttə ki, bütövlükdə cəmiyyətimiz özü bir qənaətə gəlməlidir. Əgər valideynin övladı məktəbdə günün 5-7 saatını dərs alırsa, əlavə niyə onu yükləməli və büdcəsindən pul ayırmalıdır. Belə bir qənaətə gəlmək olar ki, bu bəlanın - repetitorluğun qarşısının alınması istiqamətində həm dövlət, həm də ictimaiyyət tərəfindən ciddi işlər görülməlidir. Qeyd etdiyimiz kimi, məktəblinin məktəblə arasında olan körpüsünü dağıdır. Şagirdin hətta psixoloji gərginliyinə gətirib çıxarır: Ağır dərs yükü; İstirahətinin məhdudlaşdırılması; Şagirdlərin sosiallaşmasının qarşısının alınması və s.

Artıq repetitorluqla bağlı bir təbil çalınmalıdır. Ümumi təhsil, yoxsa fərdi qaydada təhsil?

***Zümrüd BAYRAMOVA***

# Vətən öz igid övladlarını heç vaxt unutmur!

*Şəhidin doğum günündə məzarı ziyarət edilib*



Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, təşkilatın sədr müavini Nicat Hüseynov, təşkilatın əməkdaşları Fuad Heydərli, Əfəndi İbrahimli, təşkilatın fəalları Ramil Hacıəliyev, İlkin Əsgərzadə, "Məktəb meydanı 40" Ərazi Partiya Təşkilatının sədri Sədaqət Həsənova və şəhid anaları Vətən müharibəsi şəhidi Məmmədli Cəmil Habil oğlunun doğum günü münasibətilə məzarını ziyarət ediblər. SİA-nın verdiyi məlumata görə, ziyarət zamanı şəhidimizin məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Daha sonra şəhidimizin şərəfinə yaradılan bulağın açılışı baş tutub. Açılış mərasimində İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov çıxış edərək şəhid Cəmil Məmmədlinin və Azərbaycan Ordusunun şanlı döyüş yolundan, tarixi qələbəmiz haqqında fikirlərini bölüşüb.

Muxtar Nağıyev çıxış edərək Səbail Rayon İcra Hakimiyyəti və YAP Səbail rayon təşkilatı tərəfindən şəhid ailələri və qazilərin hər zaman diqqət mərkəzində saxlanıldığını, onların daim yanında olduqlarını bildirib. Şəhid Cəmil Məmmədlinin ailəsi diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.






# Tərtərdə şəhid Ələkbər Ələkbərlinin məzarı ziyarət edilib



28 İyul 2022-ci il tarixdə YAP Tərtər rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə fəal YAP üzvləri və ictimaiyyət nümayəndələri 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış şəhid Ələkbərli Ələkbər Ramiz oğlunun doğum günü ilə əlaqədar dəfn edildiyi Tərtər rayonunun Köçərli kənd qəbiristanlığındakı məzarını ziyarət edərək, qəbri üzərinə gül- çiçək dəstələri qoyub , xatirəsini ehtiramla yad etmişlər. Ziyarətçilər şəhidin yaşadığı Köçərli kəndində ailəsini ziyarət etdilər.

Şəhidin valideynləri ilə görüşdə YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov çıxış edərək 2020-ci il sentyabrın 27-də başlayan və tarixə 44 günlük müharibə kimi düşən Vətən müharibəsindən, Milli Ordunun qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışaraq, şəhidlərin qanının yerdə qalmadığını, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, böyük Qələbənin tarixi əhəmiyyətini qeyd etmişdir. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Rəfiqə**

# YAP Quba rayon təşkilatının əməkdaşları şəhid Nuran Mirzəyevin ailəsini ziyarət ediblər







27 iyul 2022-ci il tarixdə Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının sədri Fidan Hüseynova, təşkilatın əməkdaşları 44 günlük Vətən müharibəsində ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş, Quba rayonunun Qımıl kəndindən olan şəhidimiz Mirzəyev Nuran Akif oğlunun doğum günü ilə əlaqədar ailəsini ziyarət etmişlər. Görüşdə Nuran Mirzəyevin şərəfli həyat və döyüş yolu, torpağa, milli-mənəvi dəyərlərə bağlılığı, müqəddəs şəhidlik zirvəsinə ucalmasından bəhs edilib, şəhid ailəsinin qayğı və problemləri dinlənilib. Təşkilat sədri dövlətin şəhid ailələrinə və qazilərə həssas münasibətindən söz açaraq qeyd edib ki, Cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim müvafiq kateqoriyadan olan ailələrə doğma münasibət bəsləyir, onları narahat edən problemlərin həlli ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirir. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Nuran Mirzəyev Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə savaşıb. 2020-ci il oktyabrın 19-da növbəti döyüşlərin birində minaya düşərək həyatını itirsə də, bütöv bir bölüyü xilas etmişdir. Döyüş yoldaşlarının dediklərinə görə, bölüyün önündə gedən Nuranın qışqıraraq əsgərlərə tez geriyə çəkilin, ərazi minalanıb deməsi onları mina partlayışından xilas edib. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Nuran Mirzəyev ölümündən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda", " Cəbrayılın azad olunması görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Nuran Mirzəyev 2020-ci il oktyabr ayının 21-də Qımıl kənd qəbiristanlığında dəfn edilmişdir. Subay idi Nuran. Qımıl kəndində onun xatirəsinə həsr olunmuş "Şəhid bulağı" kompleksi yaradılıb. Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olan bütün Şəhidlərimizin əziz xatirəsini ehtiramla anırıq. Məkanları cənnət, ruhları şad olsun. Nə qədər ki, Azərbaycan xalqı yaşayır, bu Vətən yolunda canını qurban vermiş övladlarını heç zaman unutmayacaq, onların əziz xatirəsini qəlbində daim yaşadacaqdır.

Allah bütün Şəhidlərimizə rəhmət etsin!

**Nəzakət**



başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldu.

## Ağdam ağdamlılara qaytarıldı

Qədim tarixə malik çoxlu sayda memarlıq və incəsənət abidələri 27 ildə yerlə yeksan olunub Ağdamımızın. XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalası, onlarla muzey, məscid, kitabxana, teatr, məktəb düşmənin vəhşiliyi ilə üzləşib. Meşələr yandırılıb, məhv edilib. Məscidlərdən başqa çirkin məqsədlər üçün istifadə olunub. Lakin vətən oğulları əllərinə silah alıb düşməni torpaqlarımızdan qovduqları kimi, məscidlərimizə də həmin əllərlə təmizlənmək, paklanmaq nəsib oldu. Bu qeyrətli oğulların sayəsində Ağdamın əzan səsi təşnəsinə də son qoyuldu. Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Ağdam bu doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyirdi. 27 il ağ çöhrəsinə qaranlıq çökən Ağdam gülümsəyirdi. Dağıdılmış, viran

# Qarşında üzümüz ağdır, Ağdam...



**Ağdamın qara gününün ömrü 27 il olsa da, 2020-ci ilin 27 sentyabrdan başlanan İkinci Vətən Müharibəsi son qoydu o günlərə. Müzəffər ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, ağ atlı oğulların düşmənin qara kabusuna çevrilməsi nöqtələdi Ağdamın qara günlərinin ömrünü. Ali Baş Komandanımızın da söylədiyi kimi, Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu.**

Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən



edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyirdi. Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlmişdi. Minlərlə evin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına vermək, buraya yeni novraq bəxş etmək üçün gəlmişdi. Ağ günlərin müjdəsi ilə Ağdam gülümsəyirdi. Qələbəsini, azadlığını bayram edirdi.

Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər salnaməsini yazan azəri övladlarının şücaəti ilə Ağdamı ağdamlılara qaytardı. Həmin gün Ağdamın üzərindən qara buludlar çəkildi, səması aydınlandı, bəyazla mavinin harmoniyası ilə Ağdamın "çöhrəsini" gülümsəyən gördük...

## 20 noyabr 2020-ci il-tariximizin qırmızı səhifəsi

20 noyabr 2020-ci il. Nə gözəl, yaddaqalan tarixə təsadüf edir Ağdamın ağ gününə qovuşması. Üzünə həsrət qaldığı, dalğası hicranı olan bayrağına qovuşması. Bütün rənglərin təməlində ağ rəng dayanır, deyirlər.

*Ardı Səh. 12*

# Qarşında üzümüz ağdır, Ağdam...

Əvvəli səh.11

Öz bəyazlığı fonunda üç rəngdən yaranan üçrəngli bayrağını sinəsinə sancdı, başını dik tutub, "Mən azad oldum, mən doğma Vətənimə qovuşdum",- dedi Ağdam. Ağdamın azad olunduğu tarix xalqımızın çoxəsirlik tarixində qırmızı bir səhifə açdı. Bu səhifə ilə əsrlər sonra da övladlarımız tanış olduqca qürur duyacaq, fəxr edəcəklər.

44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq: "Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".

### Bəyaz yurda yaz gəldi

27 il idi ki, adından "ağ" sözünü çıxarıb Qarabağın qara bəxti, qara taleyi adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu




yerlərin ağ gününə qara tüstü püskürmüşdü. İllərdi yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər-bir ailənin ümidi sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyada məşhur olan Qarabağ atlarının məskəni olan Ağdamın ağ atlı oğullarından, ağ duvaqlı qızlarından "danışırdı". 27 il əvvəl Qarabağın qoynunda ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam etməyəcəkdi. Çünki azərbaycanlıların belə bir deyimi var: qara günün ömrü az olar. Oldu da, bəyaz yurda bir payız fəslində yaz gəldi. Möcüzə sanırsınız, deyilmi? Lakin bu, möcüzə deyildi, gerçəkdi. Dövlətimizin, ordumuzun gücü idi. Şəhidlərimizin, qazilərimizin bəyaz arzuları idi. Bu bəyaz arzular yaz gətirdi Ağdama, 27 il bahara həsrət qalan Ağdama...

### Ağdam üçün yeni dövr başlayıb

Yurd salmaq, ev tikmək nə qədər çətin olsa da, uzun il-



lərə başa gəlsə də, çox insanlar üçün bir ömrə bərabər olsa da, belə imiş Qarabağ torpaqlarının sakinlərinin alın yazısı. Dağıdılacaqmış illərlə qurub-yaratdıqları. Yeməklərindən, geyimlərindən kəsib daşa, quma verib ucaltdıqları yurdları dağıdılacaqmış. İçərisində nə xəyallar qurduqları evlərə həsrət qalacaqmışlar. Nə arzularla əkdikləri ağaclar bar üstündə düşmənin xəyanətkar əllərinə veriləcəkdi. 27 il bu yurdun insanları köçkün həyatı yaşaya-yaşaya tək təsəllili Ağdamın ağ günlərini xəyallarında canladırmaq olacaqdı.

Su gələn arxa, bir də gələr, deyib atalarımız. O arxın varlığı ilə ona yenidən su gələ bilirsə, torpağın varlığı ilə də yeni yurdlar salına bilər. Ağdamda da salınacaq o yurdlar. Sevinəcək, güləcək kəndləri, şəhərləri, insanları. Ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi: İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb... Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur  Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır.

### Zəngilanın Ağalısı kimi, bir gün də Ağdama qayıdacağıq

Ağdamın ağ günə uzanan əllərinə dövlətimizin başçısı



onlarla töhfə bəxş edib. Bu töhfələrlə Ağdam yaxın gələcəkdə ağ günlərin sahibi olacaq. Bu gün Ağdam nura boyanır. Bu nurda günişiqyaslı quruculuq işləri onun hüsnünü bəzəyir, tarixini, mədəniyyətini, olanlarını özünə qaytarır.

Bu ilin fevral ayının 13-də dövlətimizin başçısının və birinci xanımın "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirakları ilə 27 ilin qara libasını əynindən çıxarıb öz tarixi bəyaz donunu geyindi Ağdam. İşğaldan azad edilən Ağdam rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xəttinin, Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafəb 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabelin çəkilməsi, bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xəttinin gətirilməsi bu rayonun ağ günlərə qovuşmasının başlanması idi.

Ümumilikdə işğaldan azad olunmuş ərazilərimizin coğrafiyasını, yeraltı və yerüstü təbii ehtiyatlarını, bu torpaqlardakı mövcud resursları, logistik imkanları nəzərə alınanda Qarabağın gələcək sənaye mənzərəsi gözlər önündə canlanır. Elə bu səbəbdən Ağdam Sənaye Parkının yaradılması da məhz ölkənin yaxın gələcəyə hesablanmış iqtisadi inkişafına xidmət edir. Eyni zamanda bu bölgəyə yeni həyat bəxş edir, insanların öz yurd-yuvalarına qayıtmalarına, məşğullqlarını təmin etmələrinə şərait yaradır, bu tarixi torpaqların zənginliyini, gücünü özünə qaytarır.

190 hektar ərazini əhatə edicək Ağdam Sənaye Parkında tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Ağdam Sənaye Parkının rezidenti "Smartpoint" MMC burada reallaşdıracağı layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. Digər rezident -"Dadaş-N" MMC Sənaye Parkında həyata keçirəcəyi layihə çərçivəsində müxtəlif çeşidli sintetik xalçalar istehsal edəcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsal ediləcək ki, bu da Ağdamı Ağdama qaytarmaq deməkdir.

Ölkə başçısı tərəfindən "Park Forest Otel Ağdam" mehmanxanasının, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binasının, Ağdam Mərkəzi Xəstəxanasının təməlinin qoyulması Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq" kimi dəyərli fikirlərinin bu gün reallaşmasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olmaları, Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olmaları bu abidələr diyarına yeni həyatın gəlməsindən, dağıdılanların hər birinin bir-bir bərpa ediləcəyindən xəbər verirdi. O gün isə uzaqda deyil. Bu günlər Zəngilanın Ağalı kəndinə başlayan Böyük Qayıdışı yaxın gələcəkdə Ağdamda da görəcəyik.

### Qarşında üzümüz ağdır, Ağdam...

Şükürlər olsun ki, biz şərəf işimizi Zəfərlə həll edə bildik. Şükürlər olsun ki, torpaq adlı namusumuzu qoruya bildik. Onu düşmən tapdağından azad etdik. Şükürlər olsun ki, 30 ilin əvvəlində satılan torpaqlarımızı geri almaqda ətrafında sıx birləşdiyimiz liderimiz oldu. Bu liderin "dəmir yumruğ"unu milyonlarla həmrəy əl birlikdə düşmənin başına endirdi. Birinci Vətən Müharibəsindən bu yana özünü güclü bilən, əslində havadarları olmadan heç nə olan düşmənin. Bu xalq düşmənə kimliyini göstərdi. Eləcə də dün-



yaya. Göstərdi ki, bu xalq bütövlükdə məhv olar, lakin bir qarış torpağını heç kimə verməz.

23 iyul 1993-cü ildə Ağdam işğal olunmuşdu. 27 il sonra isə böyük şücaətlə düşməndən geri alındı. 27 il Ağdamın qarşısında üzümüz onun taleyi kimi qara oldu. Lakin bu gün onun qarşısında üzümüz önündə başlayan günlər rəngdədir. Başımız dik, üzümüz ağdır. Çünki biz onu anası Azərbaycana qovuşdurmuşuq...

***Mətanət Məmmədova***
***Fotolar- Elçin Bayramlı***

# Kapitoliyə hücumda KİM GÜNAHKARDIR?

ABŞ Konqresinin Kapitoliyə hücumun araşdırılması Komissiyası eks-prezident Trampa qarşı ittihamların səsləndirildiyi dinləmələr keçirib. Nəzərə almaq lazımdır ki, bu, onun məhkəməyə verilməsi üçün kifayət etməyə də bilər. Belə ki, Kapitoliyə hücumu araşdıran Komissiya həmin dövrün dövlət başçısı olan Donald Trampın qəsdən hərəkətsizlikdə ittiham olunduğu ictimai dinləmələri yekunlaşdırsa da, Trampı məhkəməyə vermək üçün toplanmış dəlillərin kifayət edib-etməyəcəyi hələ bəlli deyil.

## Üzə çıxan məqamlar

Keçirilən son dinləmələrdə diqqət o vaxtkı prezident Donald Trampın Kapitoliyə hücum edənlərə çağırış etməkdən imtina etməsinə yönəldilmişdi. Qeyd edək ki, müşavirlərinin, ailəsinin, aparıcı respublikaçıların və hətta mühafizəkar Fox News kanalının rəhbərliyinin çoxsaylı xahişlərinə baxmayaraq Tramp bildiyi kimi edib. Doğrudur, Komissiya üzvlərinin sözlərinə görə, Tramp və onun ən yaxın köməkçiləri prezident seçkilərinin oğurlanmadığını bilirdilər və Trampın özü belə bu məsələdə təkid edirdi. O, səsvermənin nəticələrinin etibarını sarsıtmağa fəal cəhd göstərib, iğtişaşçıları hətta təşviq də edib.

Komissiyanın rəhbəri, Demokrat konqresmen Benni Tompson iyulun 22-də axşam keçirilən ictimai dinləmədə deyib ki, istefa verən prezident bir neçə saat ərzində qəsdən öz tərəfdarları tərəfindən zorakılığı dayandırmaq üçün tədbirlər görməyib. "O, yalan danışdı, qorxutdu, andını pozdu, demokratik institutlarımızı məhv etməyə çalışdı", deyə Tompson qeyd edib ki, Tramp hakimiyyətdə qalmaq üçün "qanunsuzluq və korrupsiya yolu" tutub.

## Dinləmələrin hüquqi nəticələri

Bəs açıq dinləmələr zamanı nümayiş etdirilən və eşidilən canlı detallar, məlum olan ifadələr və heç vaxt görülməmiş kadrlar nəyəsə gətirib çıxara bilərmi? Nəzərə almaq lazımdır ki, Konqresin komitəsi araşdırma apara bilər, lakin Trampa qarşı ittiham irəli sürmək səlahiyyətinə malik deyil. Bu, Ədliyyə Departamentinin və onun rəhbəri Merrik Qarlandın səlahiyyəti daxilindədir. Ədliyyə Departamenti isə indiyədək düz 900-ə yaxın Kapitoliyə basqın edən şəxsə, həbs edilmiş iğtişaşçıya qarşı ittiham irəli sürüb. Bəlli olur ki, Prezident administrasiyasının üzvlərini, Trampın yaxın çevrəsini və hətta özünü mühakimə etmək daha çətin iş olaraq görünür. Ümumiyyətlə, təqdim olunan sübutlar Trampa qarşı cinayət ittihamı irəli sürmək üçün kifayət qədərdirmi?

## Tramp mühakimə olunacaqmı?

Trampın niyyətlərini sübut etmək prokurorlar üçün daha aydın görünsə də, müşahidəçilər Kapitolidəki iğtişaşlarla onun hərəkətlərini əlaqələndirməyin daha çətin olacağını bildirirlər. Keçmiş prezidentə qarşı ittihamlarla məhkəməyə müraciət etmək sadəcə olaraq görünməmiş bir addımdır və bu, Ədliyyə Departamentinin məhkəmədə uğur qazanma şansı olan Trampa qarşı iddia qaldırmağın belə mümkün olub-olmadığının qiymətləndirməsini daha da çətinləşdirir.

"Hüquq sistemimizə uyğun olaraq cinayət ittihamlarını dəstəkləyəcək sübutlar olmalıdır. ABŞ-da bu, "ağlabatan şübhələrdən kənar" deməkdir, çünki cinayət hüququnda insanı mühakimə etmək standartı həqiqətən də çox yüksəkdir", deyə Sirakuza Universitetinin Hüquq Kollecinin fəxri professoru Uilyam Benks bildirib. Onun sözlərinə görə bu, daha güclü sübutların mövcudluğu deyil.

Konqresdə keçirilən ictimai dinləmələr ardıcıl olaraq böyük tamaşaçıları cəlb etsə də, əksəriyyəti heç onlara baxmayıb da. Respublikaçıların aparıcı qanunvericiləri dinləmələrin legitimliyini rədd edərək, onları "cadugər ovu" və "siyasi teatr" adlandırıblar. Eks-prezidentin özü isə özünün "Truth" sosial şəbəkəsində qəzəbli irad və tənqidlər səsləndirib.

Belə qızğın bir mühitdə keçmiş prezidentə qarşı cinayət ittihamının irəli sürülməsi, xüsusən də 2024-cü ildə onun yenidən namizədliyini irəli sürməyə hazırlaşdığı bir vaxtda, baş prokuror Qarland üçün xüsusilə riskli addım ola bilər. "Onun üzləşməyə məcbur olduğu bir sual var. Əgər Qarland Trampı və ya ona yaxın olan birini ittiham etmək qərarına gəlsə, ABŞ-ın keçmiş prezidentinə qarşı ittiham irəli sürmək qərarında o görəsəm siyasi motivli partizan kimi qəbul ediləcəkmi?

## Dinləmələr davam edəcək

Bütün bu hallar Ədliyyə Departamentinin və onun rəhbəri Merrik Qarlandın üzərinə ağır yük qoyacaq. Eyni zamanda, Konqresin komissiyası hələ də işini başa çatdırmayıb. Dinləmələr əvvəlcə iyunda başa çatmalı idi, Liz Çeyni iyulun 22-də bildirib ki, dinləmə yeni şahidlər, ifadələr və sübutlarla irəlilədikcə "bənd sınmağa başlayıb". Əgər panel əlavə əsaslı sübutlar toplaya və əsas şahidləri ifadə verməyə inandıra bilsə, öz araşdırmasını aparan, lakin dinləmələri diqqətlə izləyən Ədliyyə Departamenti cinayət ittihamı irəli sürmək qərarına gələ bilər.

Diqqətə çatdıraq ki, Donald Trampın yaxın çevrəsində əvvəllər ifadə verməkdən imtina edən yüksək vəzifəli məmurların fikirlərini dəyişə biləcəyinə də ümidlər var, eyni ilə Ağ Evin keçmiş müşaviri Pat Cipollone, adının bir neçə dəfə çəkildiyi lənətə gəlmiş ifadəsindən sonra məhkəmədə danışmış, ifadə vermişdi. Yenə də eyni şəkildə fikirlər dəyişə və ifadə verilə bilər. Əks halda hansısa nəticədən danışmaq məntiqi olmaz. Hər bir halda ictimai dinləmələrin növbəti seriyası mühüm aralığa, Konqres seçkilərinə cəmi iki ay qalmış sentyabr ayına planlaşdırılıb.

***İnam Hacıyev***









# Minsk qrupu ölmədimi?

## *Yaxud ABŞ səfirinin Şeyx Nəsrullah olmaq arzusu*

**ATƏT-in Minsk qrupu 26 illik səmərəsiz, fəaliyyətsiz, əhəmiyyətsiz ömrünü başa vurdu. Gəlişi ümidli olsa da, gedişinə sevinənlər çox oldu. Həm də xeyir gətirməyən bazar piştaxtası kimi birdən qapandı. Bəs ATƏT-in yaratdığı, beynəlxalq mandat verdiyi bu qurum niyə lazımsız əşyaya, fəaliyyətsiz quruma çevrildi? Məgər yarandığı və ”fəaliyyət” göstərdiyi bu 26 ildə heçmi səmərə vermədi? Buna oxşar hadisə ilə kimsə rastlaşıbmı? Oxucuların əksəriyyətində bu sualların cavabları var.**

Minsk qrupu məzara gömülməyə məhkum idi, çünki qərəzli mövqedə idi. Ermənistanın separatçı əməllərinə bilavasitə dəstək verirdi, işğalçı ilə, işğala məruz qalanı seçə bilmirdi, yaxud bunu istəmirdi. Münaqişəni tərəfləri Ermənistan və Azərbaycan olduğu halda bu qurumun həmsədr ölkələlərinin təmsilçiləri Qarabağdakı separatçıları ziyarət etməmiş, onları təlimatlandırmamış regiondan getmirdilər. Bir növ separatçı-terrorçuları bəsləyir, dəstəkləyir və ilham verirdilər. Minsk qrupunun lüğətində sanki ”ərazi bütövlüyü”, ”suveren hüquq” kimi terminlər yoxa çıxmışdı. Erməni lobbisinin diktə etdikləri, sifarişləri beynəlxalq hüququn norma və prinsipləri kimi təqdim edilirdi. Az qala Azərbaycana açıq şəkildə ”Qarabağdan imtina edin” deyə çağırış edirdilər, hətta bunu tələb də edirdilər. Amma Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini 27 il, münaqişənin ədalətli həllini isə 30 il gözləyə bildi. Artıq zamanın yetişdiyini Azərbaycanda olduğu kimi, bütöv Qarabağı işğal altında saxlayan Ermənistanda da hiss etməyə başladılar. Ermənistan silahlı qüvvələrinin üçüncü təxribatçı cəhdi böyük müharibənin başlamasına təkan verdi. Ermənistan liderlərinin Qarabağı Ermənistanın tərkib hissəsi hesab etməsi, separatçıların qondarma ”dövlət qurumları”nın Şuşaya köçürülməsi planı, Aprel döyüşləri və nəhayət Tovuz hadisələri münaqişənin aktiv müharibə fazasına keçməsinə əngəl ola bilmədi. Azərbaycan xalqı, dövləti və ordusu bir yumruq kimi birləşdi və düşmənin başına endirildi

Və müharibə 9 noyabr 2020-ci il üçtərəfli bəyanatı ilə sona çatdı. Regionda yeni reallıqlar yarandı. Yeni format münaqişənin yerdə qalan məsələlərini həll etmək iddiasını ortaya qoydu. Əvvəlki oyunçular şəraitə uyğun olaraq, daha doğrusu yeni tələblərə cavab vermədikləri üçün sıradan çıxarıldılar. Deməli, münaqişəni həll etməyi öhdəlik kimi üzərinə götürmüş, lakin işinin öhdəsindən gələ bilmədiyi üçün ”iki” qiymət alan Minsk qrupu tarixin arxivinə gərəksiz əşya kimi atıldı. Yadınızdadırsa, 44 günlük müharibə başa çatar-çatmaz ATƏT-in xüsusi nümayəndəsi ilə birlikdə Azərbaycan Prezidentinin qəbuluna gələn həmsədrlərə İlham Əliyev nə demişdi: ”Mən sizi dəvət etməmişəm”. Bu, əslində həmsədrlər üçün ölümdən betər idi. Onlar bir işi bacara bilməmişdilər, kiçik Ermənistanın separatçı, işğalçı əməllərinə dəstək verərək beynəlxalq arenada nüfuzlarını itirmişdilər. Dünyanın 3 nəhəng ölkəsinin həqiqəti söyləməsinə, hər kəsi öz adı ilə çağırmasına nə mane olmuşdu? Bircə onu demək kifayətdir ki, bu sualın cavabında çoxlu qanunsuzluqlar, beynəlxalq hüququn norma və prinsiplərinin pozulması halları var.

Budur, müharibənin başa çatmasından 20 ay keçir. Tərəflər sülh müqaviləsi bağlamağa hazırlaşır. Azərbaycanın təklif etdiyi 5 baza prinsipinə Ermənistan ”yox” deyə bilmir. Sərhədlərin demilitasiyasına az vaxt qalır. Moskvanın və Brüsselin iştirakı ilə görüşlər səmərəli keçib. Və . Və belə bir zamanda Vaşinqton və Parisin ”fırı”qalxıb, yadlarına Minsk qrupu düşüb. ABŞ-ın Ermənistandakı səfiri Ağ Evdən aldığı təlimatlar və ”dualar” hesabına ölü diriltmək, Şeyx Nəsrullahlıq etmək iddiasına düşüb. Yenidən münaqişəni ötən əsrin 90-cı illəri səviyyəsinə salmaq istəyir. ABŞ-ın Ermənistandakı səfiri Lin Treysi ”Azadlıq” radiosuna müsahibəsində deyib ki, Birləşmiş Ştatlar Qarabağ probleminin hərtərəfli və sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupunda Rusiya ilə əməkdaşlığı davam etdirməyə hazır olduğunu bir daha bəyan edir: ”Biz Minsk qrupundan platforma kimi istifadə etməyə hazır olduğumuzu bildirdik. Bu təklif açıq qalır. Rusiyalı həmkarlarının bu təklifə reaksiyasını eşitməmişik. Amma hesab edirəm ki, bu, ilk addımdır, ondan sonra başqa addımlar və ideyalar barədə danışmaq olar. Biz gözləyirik ki, Rusiya ilk addımı atacaq və bu, Rusiyanın bu formatda iştirakına qayıtması olacaq. Biz Minsk qrupunu Qarabağdakı vəziyyəti müzakirə etmək üçün beynəlxalq mandata malik format, platforma kimi nəzərdən keçirməyə davam edirik”.









Azərbaycan prezidentinin münaqişənin artıq həll edildiyi və vasitəçilərə ehtiyac olmadığı barədə bəyanatlarına Birləşmiş Ştatların necə münasibət bəsləməsi ilə bağlı suala cavablandıran səfir Treysi vurğulayıb ki, bu bəyanatlara baxmayaraq, Vaşinqton Minsk qrupu formatından istifadə etmək yollarını axtarmağa davam edəcək: ”Rusiyanın Ukraynaya qarşı müharibə aparmasına baxmayaraq, ABŞ bu regiondakı Ermənistanla Azərbaycan arasındakı vəziyyətə çox diqqətlə yanaşır. Düşünürəm ki, bu, ABŞ-ın, ABŞ dövlət katibinin münaqişələrin yenidən başlanmasının qarşısını almaq, müzakirələri diqqət mərkəzində saxlamaq, irəliləyiş əldə etmək və bunu diplomatiya yolu ilə etmək istəyinə sadiqliyini göstərir”.

Region haqqında danışan səfir Treysi bir neçə dəfə Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasını xatırladıb və vurğulayıb ki, bu istiqamətdə irəliləyiş Ermənistan-Azərbaycan münasibətlərinin yaxşılaşmasına kömək edə bilər: ”Bu məsələlərin bir çoxu son nəticədə bir-biri ilə bağlıdır və biz bir istiqamətdə müsbət addımları görürük. Bu, regionda daha geniş sülhə nail olmaq üçün imkanları genişləndirə, sürəti artıra bilər”.

Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayevin cavabı isə özünü çox gözlətməyib. Jurnalistlər üçün keçirdiyi brifinqdə Qərbin Bakı ilə İrəvan arasında vasitəçilik prosesindən Moskvanı sıxışdırıb çıxarmaq planlarını şərh edib. Bildirib ki, ümumiyyətlə, son vaxtlar Aİ və ABŞ-dan olan həmkarlar Cənubi Qafqaz regionunda fəallaşıb və mediada getdikcə Qərbin Rusiyanı Bakı ilə İrəvan arasında münasibətlərin nizamlanmasındakı vasitəçilik prosesindən sıxışdırıb çıxarmağı planlaşdırdığı barədə məlumatlar yer alıb.

”Moskva Cənubi Qafqazda Qərbin təsirinə qarşı necə çıxacaq?”, sualına cavabında bildirib ki, Rusiya Cənubi Qafqazın sülh və firavanlıq zonasına çevrilməsinin tərəfdarıdır. Regional istiqamətdə işimizdə biz sırf yaradıcı gündəmi təbliğ edirik və heç kimlə rəqabət aparmaq fikrində deyilik. Bizim konstruktiv məqsədlərimiz var.

Neçayevin sözlərinə görə, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması ilə bağlı dəfələrlə qeyd olunduğu kimi, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatları əsasında müvafiq səylər göstərilməlidir: ”Qeyri-regional oyunçular qeyd olunan razılaşmalara uyğun hərəkət etsələr və onların həyata keçirilməsinə töhfə versələr, onların prosesə cəlb olunmasına etiraz etmirik. Əsas odur ki, kimisə zəiflətmək və gizli oyunların qurmaq kimi niyyətlərin qarşısı alınsın. Təəssüf ki, adı çəkilən aktyorlar tərəfindən biz dəfələrlə belə praktika ilə üzləşməli olmuşuq”.

Bundan əvvəl ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri Bürosunun bəyanatında rusiyalı həmsədrin Qarabağın gələcəyini müzakirə etmək dəvətini qəbul etmədiyi vurğulanmışdı. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə iyunun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla danışıqların yekunlarına dair mətbuat konfransında bildirib ki, Qarabağ nizamlanması üzrə ATƏT-in Minsk qrupu ABŞ və Fransanın təşəbbüsü ilə fəaliyyətini dayandırıb.

”ABŞ öz məqsədlərinə çatmaq üçün erməni resursundan istifadə etməyə çalışır”. Bunu Ermənistanın Polşadakı keçmiş səfiri Edqar Qazaryan deyib. Onun sözlərinə görə, Ermənistan Rusiyanın müttəfiqidir: ”KTMT-nin üzvüdür və hazırda bu təşkilatın Şurasına sədrlik edir. Rusiya hazırda Ukraynada xüsusi əməliyyat keçirir, ABŞ və Avropa isə Moskvaya düşmən münasibət bəsləyir. Bu vəziyyətdə Ermənistanın Rusiya Federasiyasına düşmən olan dövlətlər və beynəlxalq strukturlarla yaxınlaşması qumar oyunudur və fəlakətli nəticələrə gətirib çıxaracaq”.

Bəli, vəziyyət heç də həmsədr ölkələr üçün ürəkaçan deyil. Hər üç ölkənin Cənubi Qafqazdakı niyyəti bəllidir. Regionda nüfuz davası gedir. Avropa və ABŞ Rusiyanı bütün beynəlxalq təşkilatlarda olduğu kimi, Minsk Qrupundan da vurub çıxarmaq istəyirlər. Amma bu nüfuz müharibə üçün həlləlik tərəflərin haqq-hesab çəkəcəkləri meydan və platformalar var. Cənubi Qafqazda yeni poliqon, meydan hazırlamağa ehtiyac yoxdur. Bunun üçün 30 il gərəksiz fəaliyyət göstərdiyiniz Minsk qrupunu ölüxanadan dirixanaya gətirməyə, ona süni nəfəs verməyə ehtiyac yoxdur. Minsk qrupu necə yatıbsa, qoyun eləcə də yatsın. Allah sənə rəhmət eləsin, Minsk qrupu

**V.VƏLİYEV**

# 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan məsələlərlə bağlı növbəti yazımızda prioritet sahələrin hansılar olduğu və yeni inkişaf modelinin necə həyata keçiriləcəyindən danışacağıq**

Strategiyaya görə, 2022-2026-cı illərdə yeni sosial-iqtisadi inkişaf modeli Azərbaycanda çoxsahəli inkişafın yeni keyfiyyət səviyyəsini müəyyən edəcəkdir. Bu mərhələdə başlıca məqsəd yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir Azərbaycan Respublikası vətəndaşının sabit təminatlı həyat səviyyəsinə nail olmaqdır. Bu zaman başlıca vektor artımın səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanacaqdır. Strateji dövrdə yeni artım modeli özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcəkdir.

İnkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə yönəldəcəkdir. Bu model hamı üçün bərabər imkanlar və fürsətlər yaradacaqdır.

Azərbaycan Respublikası vətəndaşının bilik, bacarıq və səriştələrinin artması onun gəlir qazanmaq imkanlarını genişləndirəcək və sağlam həyat tərzini təmin edəcəkdir. Bilikli cəmiyyət müasir texnologiya və innovasiyaların həm yaradıcısına, həm də istifadəçisinə çevriləcəkdir. Ölkədə təbii resurslardan dayanıqlı istifadə etməklə, ekoloji mühiti qorumaqla iqtisadiyyatın effektivliyinə nail olunacaqdır. Yüksək inkişaf səviyyəsi eyni zamanda yüksək maddi və mənəvi rifahı təmin edəcək, dayanıqlı artan milli gəlirdən insanlar daha geniş şəkildə faydalanacaqlar.

Yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur. Strateji dövrdə sosial-iqtisadi inkişaf modeli əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlərə əsaslanmaqla reallaşdırılacaq.

Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaqdır. Keyfiyyətli məhsul və xidmətlər ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcəkdir. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq, sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcəkdir. Dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq, onların hesabatlılığı gücləndiriləcəkdir. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3-4%, qeyri-neft/qaz ÜDM-i isə illik orta hesabla 5% artacaq.

Özəl sektorun iqtisadiyyatda payı 88%-ə çatdırılacaqdır. Sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi təmin olunacaq və effektiv məhkəmə islahatları həyata keçiriləcəkdir. Bu islahatlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının effektiv müdafiəsinə imkan verəcəkdir. Sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmə optimallaşdırılacaq. Təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınacaq və bütün bazarlarda rəqabət gücləndiriləcək.

Dövlət satınalmalarında şəffaflıq və səmərəlilik artırılacaqdır. İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcəkdir. Bu islahatların həyata keçirilməsi sayəsində biznes mühiti daha da sağlamlaşdırılacaq, milli iqtisadiyyata etimad artacaq və nəticədə böyük həcmdə daxili və xarici investisiyalar cəlb ediləcəkdir. Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndiriləcəkdir.

Uğurlu ölkələrin təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə biznes layihələrinin dəstəklənməsi mexanizmləri təkmilləşdiriləcək. Nəticədə, sahibkarlıq fəaliyyətinə başlamaq və mövcud fəaliyyətini genişləndirmək istəyənlər, xüsusilə kiçik və orta bizneslər üçün yeni maliyyələşmə mexanizmləri yaradılacaqdır. Bu əsasda sahibkarlara dəstək üzrə sərf olunan maliyyə vəsaitinin 20-30%-nin mikro, 35-45%-nin kiçik və 25-35%-nin orta sahibkarlara yönəldilməsi hədəflənir. Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəliliyi yüksəldiləcək, idarə edilməsi yaxşılaşdırılacaq və şəffaflığı artırılacaqdır.

Rəqəmsal texnologiyaların inkişafı məqsədilə xüsusi fondlar və inkişaf institutları fəaliyyət göstərəcək, bu əsasda internet, yüksəksürətli mobil internet (5G texnologiyası daxil olmaqla), xüsusilə genişzolaqlı internet xidmətlərinin əhatəsi 95%-ə çatdırılacaqdır. Aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaqdır.

Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022-2026-cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4% artacaqdır.

Nəqliyyat sektorunda orta illik artım tempi 5%-i üstələyəcək. Ölkənin tranzit yükdaşımalardan əldə etdiyi gəlir 2019-cu ildəki 227 mln manatdan 2 dəfəyədək artaraq, 450 mln manata çatacaqdır. Qeyri-neft/qaz sənayesi hər il orta hesabla 8,3% artacaq, sənaye zonalarının qeyri-neft/qaz sənaye istehsalında payı 15%, qeyri-neft/qaz sənaye ixracında payı isə 25% olacaqdır.

İnformasiya və rabitə sektorunda hər il orta hesabla 10%-dən çox, tikinti sektorunda isə təxminən 3% artım olacaqdır. 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaqdır. Dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitlik və dayanıqlıq təmin olunacaq, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi gücləndiriləcək.





Makroiqtisadi sabitliyin və maliyyə sabitliyinin gücləndirilməsi iqtisadi artımın davamlılığı üçün vacibdir. Ölkənin makroiqtisadi dayanıqlığı - irihəcmli strateji ehtiyatların mövcudluğu milli iqtisadiyyatımızın xarici mühitdəki dəyişikliklərə dayanıqlı olmasını gücləndirəcəkdir. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin yuxarı həddi 2026-cı ilin sonunadək 17,5% təşkil edəcək, bu şəraitdə Dövlət Neft Fondunun aktivləri dayanıqlı səviyyədə saxlanılacaqdır.

Növbəti illərdə tələb olunan maliyyələşmələrin daxili borcalmalar hesabına təmin edilməsi yolu ilə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 20%, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10% ətrafında saxlanılması hədəflənir.

İxrac şaxələnəcək və qeyri-neft ixracı genişlənəcəkdir. İxracı asanlaşdırmaq üçün idarəetmə və institusional mexanizmləri tənzimləmə çərçivəsi təkmilləşdiriləcəkdir. İxracyönümlü yerli məhsulların keyfiyyətli istehsalı təmin olunacaq və ixrac inkişaf etdiriləcək, qeyri-neft/qaz ixracının təşviqinə dövlət dəstəyi artırılacaq, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft/qaz ixracının həcminin 85% artmasına nail olunacaqdır.

Əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcəkdir. İşləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum 16 əməkhaqları artırılacaqdır. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaqdır.

Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaqdır. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaqdır. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6%-dən artaraq 80%-ə çatdırılacaq.

Qeyri-formal məşğulluğun mərhələli azaldılması nəticəsində muzdla işləyənlər üzrə qeyri-dövlət sektorunun payı 50% (2021-ci il üzrə: 46,9%) təşkil edəcəkdir. Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaqdır. Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaqdır. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcəkdir. Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75-80%-də saxlanılacaqdır.

Yaşından, sosial statusundan, yaşayış yerindən asılı olmayaraq hamı üçün əlçatan, keyfiyyətli və müasir səhiyyə xidmətləri sistemi yaradılacaqdır. Region və şəhərlərdə müasir tibb xidmətləri inkişaf etdiriləcəkdir. Əhalinin idmanla məşğul olması təşviq olunacaqdır. İstirahət və idman məqsədləri üçün yeni park və qoruqlar salınacaqdır. ÜDM-də səhiyyə xidmətlərinin payı 2%-dən artaraq 4,3% təşkil edəcəkdir. Beləliklə, doğulanda gözlənilən ömür uzunluğu 73,2 ildən 75,2 ilə çatacaq.

Göründüyü kimi, qarşıdakı 5 ildə sosial-iqtisadi sahələrdə çox böyük irəliləyişlər gözlənilir. Strategiyada nəzərdə tutulan digər sahələrlə bağlı növbəti yazılarımızda danışacağıq.

***Elçin***

# Çerçesov:

## "Qarabağ" uğur qazanmağa layiq idi



"Qarabağ"ın futbol üzrə UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsindəki rəqibi "Ferentsvaroş"un (Macarıstan) baş məşqçisi Stanislav Çerçesov növbəti açıqlama verib.

Qol.az xəbər verir ki, "Sport ekspress"ə danışan rus mütəxəssis Ağdam təmsilçisi ilə bağlı deyib: "Sürix" "Qarabağ"la dueldə uduzdu. Ona görə "Sürix" haqda danışmaq mənasızdır. "Qarabağ" uğur qazanmağa layiq idi. Amma yenə deyirəm, bazar ertəsi səhər tezdən rəqib haqqında düşünməyə başlayacağıq. Bakıya çərşənbə axşamı gedəcəyik. Bazar günü isə Macarıstan çempionatına start verəcəyik. Bu turnirdə qarşımızda maksimum tapşırıqlar var".

Qeyd edək ki, "Qarabağ"la "Ferentsvaroş" arasında ilk görüş avqustun 3-də Bakıda, Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək. Oyun saat 20:00-da başlayacaq. Cavab görüşü isə avqustun 9-u Budapeştdə keçiriləcək. Bu qarşılaşmaya da yerli vaxtla saat 20:00-da (Bakı vaxtı ilə 22:00) start veriləcək.

# Səhərlər limonlu su içməyin faydaları



Bir çox diyetoloqların sözlərinə görə, səhərlər bir az limon şirəsi əlavə edilmiş bir stəkan ılıq su qəbul etmək immun sistemini gücləndirmək üçün gözəl vasitədir. Bu qarışım çəkinin azalması, kaliumun əldə edilməsi, düzgün həzm, böyrək daşlarının qarşısının alınması, dərinin vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Limon həm də bədənə enerji verir. O həm də arıqlamaq üçün unikal meyvə hesab olunur. C vitamini və antioksidantlarla zəngin olan limon bədəni detoksikasiya etməyə kömək edən sidikqovucu təsirə malikdir.

Diyetoloqlar məsləhət görürlər ki, günə qəhvə ilə başlamaq əvəzinə, bir neçə qurtum limonlu ılıq su içmək daha məsləhətlidir. Həm də limon şirəsində olan minerallar və vitaminlər həzm sistemini ideal vəziyyətdə saxlayır.

Əla kalium mənbəyi olan limonlu ılıq su mineral ürək sağlamlığını qorumağa, əzələləri inkişaf etdirməyə və karbohidratları parçalamağa kömək edir. Həmçinin limon suyu ilə içilən suyun miqdarı böyrək daşlarını əmələ gətirən mikro komponentlərin yuyulmasına kömək edir. Limon antioksidant maddələrin mənbəyi olduğu üçün dərini təravətləndirir və ən əsası, immun sisteminin gücləndirir.

## 17 yaşlı qızın intiharı ilə bağlı açıqlama yayıldı



Baş Prokurorluq abituriyentin intiharı ilə bağlı açıqlama verib. SİA-nın məlumatına görə, qurumun Mətbuat Xidmətindən bildirilib ki, Şərur rayon sakini, 2005-ci il təvəllüdlü Rzayeva Laçın Ümman qızının iyulun 23-də yaşadığı evin həyətyanı sahəsindəki bağda özünü asaraq intihar etməsi faktı ilə bağlı hazırda Şərur Rayon Prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, sosial şəbəkələrdə yayılan məlumata görə, L.Rzayeva abituriyent olub.

## Azərbaycanda yeni tədris ili sentyabrın 15-i başlayacaq



Azərbaycanda 2022-2023 tədris ili sentyabrın 15-i başlayacaq. SİA-nın məlumatına görə, bu barədə təhsil naziri Emin Əmrullayev müvafiq əmr imzalayıb. Əmrə əsasən, növbəti tədris ili sentyabrın 15-i başlayıb, iyunun 14-də başa çatacaq.

# Dünyanın ən böyük çəhrayı almazı tapılıb

***Avstraliyanın "Lucapa Diamond" şirkəti Anqolanın şimal-şərqindəki Lulo mədənində son 300 ildə kəşf edilən ən böyük (170 karatlıq) çəhrayı almazı tapıb. SİA TRT telekanalına istinadən xəbər verir ki, bu barədə Anqolanın Mineral Ehtiyatlar Naziri Diamantino Azevedo bildirib: "Lulodan tapılan bu möhtəşəm çəhrayı almaz Anqolanı dünya səhnəsində mühüm oyunçu kimi göstərəcək".***

Bildirilir ki, Anqola dövlətinə məxsus almaz ölkənin ticarət firması olan "Sodiam" tərəfindən keçiriləcək beynəlxalq tenderlə satışa çıxarılacaq.



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**